**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ**

Əlyazması hüququnda

**RƏCƏB ƏBDÜLƏLİ OĞLU AĞAYEV**

# TƏLİM-TƏRBİYƏNİN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASINDA ŞAGİRDLƏRİ DÜŞÜNDÜRƏRƏK ÖYRƏTMƏNİN VƏ NÜMUNƏNİN ELMİ-NƏZƏRİ ƏSASLARI

5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsili tarixi

Pedaqogika üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F A R A T I**

**NAXÇIVAN-2016**

**İş** Naxçıvan Dövlət Universitetinin "Pedaqogika və psixologiya" kafedrasında yerinə yetirilmişdir.

**RƏSMİ OPPONENTLƏR:**
- Pedaqogika üzrə elmlər doktoru, **professor F.B.Sadıqov**
- Pedaqogika üzrə elmlər doktoru, **professor A.N.Abbasov**
- Pedaqogika üzrə elmlər doktoru, **professor Ş.T.Tağıyev**

**APARICI TƏŞKİLAT: Bakı Slavyan Universitetinin "Pedaqogika və psixologiya" kafedrası**

**Müdafiə** 27 fevral 2016-ci il tarixdə saat $11^{00}$ -da Naxçıvan Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD.02.121 Dissertasiya Şurası əsasında yaradılmış B/FD.02.121 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**ÜNVAN:** AZ 7012, Naxçıvan şəhəri, Universitet şəhərciyi, əsas bina, I mərtəbə, Böyük akt zalı.

**Dissertasiya** ilə Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq olar.

**Avtoreferat** "_23__" yanvar 2016-ci il tarixdə göndərilmişdir.

**B/FD. 02.121 DİSSERTASİYA ŞURASININ ELMİ KATİBİ:** **dos. İ.Z.Cəfərov**

## Giriş

**Mövzunun aktuallığı.** Xalqımıza, vətənimizə gərəkli kamil şəxsiyyətlərin formalaşdırılmasında insani fəaliyyət olan, onu digər canlılardan fərqləndirən sağlam düşüncə və habelə hamıda heyrət, rəğbət doğuran, görünən, müşahidə olunan, duyulan ideal nümunə bir-birini şərtləndirir, bir-birinin təkamülünə, inkişafına yaxından köməklik və yardım göstərir. Onu da bilməliyik ki, görünən, müşahidə olunan, duyulan ideal nümunələr insanı sağlam düşüncəyə yiyələnməyə səfərbər edir. Sağlam düşüncəyə malik olmaq, əqli-mənəvi dünyası ilə başqalarına görünən, müşahidə olunan, duyulan nümunə olmaq kamil şəxsiyyət bütövlüyünün təminində həlledici dəyərə malikdir. Sağlam düşüncə və ideal nümunə insanı bayağı hərəkətlərdən qoruyur, onu gözəl hisslərlə yaşayıb yaratmağa səfərbər edir. Sağlam düşüncəlilik və ideal nümunəvilik keyfiyyətləri insanda bir-birinin təkamülünə, inkişafına yaxından köməklik və yardım göstərir. Dünyada ən kamil aparat kimi dəyərləndirilən beyin fəaliyyəti sayəsində öz təzahürünü tapan sağlam düçüncənin və həmçinin ideal nümunənin insanda formalaşması onun böyük, kamil şəxsiyyətə çevrilməsində həlledici dəyərə malikdir. Onu da bilməliyik ki, böyük, kamil şəxsiyyətlərə bütün tarixi dövrlərdə ehtiyacımız olmuş və haliyədə də olmaqdadır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2 fevral 2007-ci il tarixdə ölkədə Gənclər gününün 10-cu ildönümü ilə əlaqədar gənclər təşkilatlarının nümayəndələri ilə görüşündəki giriş nitqində cəmiyyət həyatında mühüm rol oynayan təhsilin və o zəmində insanların biliklərə mükəmməl yiyələnməsinin əhəmiyyətini belə dəyərləndirmişdir: “Deyə bilərəm ki, təhsil hər bir ölkənin inkişafında başlıca rol oynayır. Çünki inkişaf etmiş ölkələrin təcrübəsini əgər gözdən keçirsək görərik ki, məhz o ölkələrdə inkişaf var ki, orada elm, bilik, təhsil yüksək səviyyədədir. Bu, gənc yaşlarından, məktəbdən başlayır. Biz də istəyirik ki, Azərbaycan hərtərəfli inkişaf etmiş ölkə olsun. Bizim böyük sərvətlərimiz var, çox əlverişli coğrafi mövqeyimiz var. Ancaq sözün əsl mənasında, inkişaf etmiş ölkə olmaq üçün çox bilikli insanlar olmalıdır.”[1]

Bu baxımdan “Təlim-tərbiyənin səmərəliliyinin artırılmasında şagirdləri düşündürərək öyrətmənin və nümunənin elmi-nəzəri əsasları” adlı dissertasiya tədqiq edilən mövzunun aktuallığı ilə səciyyələnir. Düşündürərək öyrətmək, düşünərək öyrənmək və habelə peşəkarlıq

---

[1] Azərbaycan Prezidenti İlham Əliyevin 2 fevral 2007-ci il tarixdə Gənclər gününün 10-cu ildönümü ilə əlaqədar ölkənin gənclər təşkilatlarının nümayəndələri ilə görüşündəki giriş nitqi. http://www.preslib.az/eres1.html

baxımından görünən, müşahidə olunan, duyulan heyrətləndirici ideal nümulər əsasında şagirdlərə əqli-mənəvi təsir göstərmək səriştəliliyi şagirdlərin bilik, bacarıq və vərdişlərə şüurlu şəkildə yiyələnmələrinə, təlim prosesində şagirdlərin axtarıcı, yaradıcı fəalliyyət göstərmələrinə səbəb olmaqla yanaşı və həm də təlimin təhsilləndirici. tərbiyələndirici, inkişafetdirici vəzifələrinin müvəffəqiyyətli həllinə real zəmin yaratmış olur. Müəllimin düşündürərək öyrətmək, düşünərək öyrənməyə sövq etdirmək, ibrətamiz, nəsihətamiz nümunələrlə heyrətləndirici zəmində təsir göstərmək səriştəliliyi şagirdləri müəllimlə əməkdaşlıq etməyə, özünütəhsilə, özünütərbiyəyə, özünütəkmilləşdirməyə səfərbər edir. Pedaqoji-psixoloji ədəbiyyatlar təsdiqləyir ki, özünütəhsilləndirmə, özünütərbiyələndirmə, özünütəkmilləşdirmə proseslərində hər iki fəaliyyət bir orqanizmdə cəmləşdiyindən pedaqoji fəaliyyətin səmərə və keyfiyyəti qat-qat yüksəltmiş olur. Onu da bilməliyik ki, təhsilin ən yüksəyi özünütəhsil, tərbiyənin ən yüksəyi özünütərbiyə və habelə inkişafın ən yüksəyi özünüinkişafdır. Bu deyilənlərə nail olmaq öyrənmədə şüurluluğu artırır, unutqanlığın qarşısını almış olur.

**Tədqiqatın obyekti** ümumtəhsil məktəbi şagirdləridir. İbtidai təlim dövründə şagirdlər təqlidə üstünlük vermək zəminində müstəqil öyrənməyə daha çox həvəs, səy və aludəçilik göstərirlər. Kiçik yaş dövründən başlayaraq şagirdləri yaş və anlam səviyyələrinə müvafiq şəkildə düşünərək, fikirləşərək, əqli mühakimə yürüdərək öyrənməyə alışdırmaq onların sonrakı təhsil illərində daha böyük uğurlar qazanmalarına təminat verir. Bu yaş dövründə uşaqlarda həssaslıq daha yüksək olur. Lakin onların həyata bələdliyi, mücərrəd təfəkkürləri bəsit şəkildə formalaşdığından onlar tərbiyəedənlərin (müəllim, tərbiyəçi, valideyn və b.) nümunələrindən daha çox bəhrələnməyə xüsusi səy və təlaş göstərirlər. Bu da təbiidir. Böyük Çex pedaqoqu, "Böyük didaktika" əsərinin müəllifi Y.A. Komenski çox düzgün olaraq bildirmişdir ki, uşaqlar öyrənməyə başlamazdan əvvəl təqlid etməyi öyrənirlər. Bu cəhətdən bütün yaşlılar, valideynlər, tərbiyəçilər, müəllimlərin ideal nümunə olmaları vacib, gərəkli və hətta zəruridir. Bilməliyik ki, bütün tərbiyəedənlərin, müəllimlərin hər bir işi, əməli təsirsiz qalmır, uşaqlarda öz real əks-sədasını tapır. Övladlarımızda maraq motivlərinin və tələbatlarının yüksək olmasının nəticəsidir ki, onlar bütün tərbiyəedənlərə, o cümlədən müəllimlərinə müəyyən anlaşılmazlıqları aşkarlamaq üçün "niyə?", "nə üçün?" sualları ilə tez-tez müraciət etməli olurlar. Bütün yaşlılar və o cümlədən müəllimlər onlarda olan bu səyi, bu həvəsi, bu təlaşı, bu marağı söndürməmək üçün onlarla səmimi mənəvi ünsiyyətə girmək əsasında heysiyyatlarına toxunmamaqla onların heç bir sualını cavabsız qoymamalıdırlar. Onların suallarına sağlam düşüncə əsasında düzgün cavablar

verməyə çalışmalıdırlar. İbtidai təlim dövründə sistematik, planlı və mütəşəkkil təhsillənmənin (bilik, bacarıq və vərdişlərə yiyələnmə), tərbiyələnmənin (mənəvi zənginləşmə) və psixoloji inkişafa nail olmağın ilkin özülü qoyulur. Bu dövrdən başlayaraq düşündürərək öyrətmək və görünən, müşahidə olunan, duyulan müsbət nümunələrlə bəhrələndirmək onların yuxarı siniflərdə də təlim-tərbiyə sahəsində yüksək müvəffəqiyyətlərə nail olmalarına real zəmin yaratmış olacaqdır.

**Tədqiqatın məqsədi** təlim-tərbiyənin səmərəliliyinin artırılmasında şagirdləri düşündürərək öyrətməyin və ibrətamiz şəxsi nümunənin elmi-nəzəri əsaslarını aşkarlamaq və onlardan istifadə etmək yollarını, üsullarını, üsulun ayrılmaz tərkib hissələri olan tərzlərini, vasitələrini müəyyənləşdirməkdir.

**Tədqiqatın fərziyyəsi.** Tədqiqat işinə başlayarkən belə bir işçi fərziyyəsi irəli sürüldü ki, ümumtəhsil məktəbi şagirdlərini hər bir dərsdə və sinifdənxaric tədbirlərdə düşündürərək öyrətməyə, görünən, müşahidə olunan, duyulan heyrətləndirici müsbət şəxsi nümunələrlə təsir göstərməyə diqqət və qayğı göstərilərsə təlim-tərbiyənin səmərə və keyfiyyəti yüksəldilmiş olar.

**Tədqiqatın vəzifələrinə aşağıdakılar daxildir:**

- İnsani fəaliyyət olan düşüncənin və görünən, müşahidə olunan, duyulan heyrətləndirici müsbət nümunənin mahiyyətini, məzmunu və didaktik dəyərini aşkarlamaq;
- Düşündürərək öyrətməyin şüurlu öyrənməyə təsirini və müsbət nümunənin digər tərbiyə üsullarından, tərzlərindən, vasitələrindən üstünlüyünü müəyyənləşdirmək;
- Beyin fəaliyyəti olan düşüncənin və peşəkarlıq baxımından bütün çalarlarda ideal nümunələrə riayət etməyin təlim-tərbiyəyə göstərəcəyi müsbət təsiri aşkarlamaq;
- Düşündürərək öyrətməkdə müsbət nümunələrdən istifadə etməyin pedaqoji, psixoloji, fizioloji əsaslarını müəyyənləşdirmək;
-Düşündürərək öyrətməkdə, heyrətləndirici, ibrətamiz, nəsihəhətamiz müsbət nümunələrlə təsirdə idrak motivlərinin və tələbatların rolunu aşkarlamaq;
- Düşüncənin və nümunənin insanın həyatını və mənəviyyatını zəngiləşdirməsini əks etdirən mənbələrlə şagirdləri tanış etmək.

**Tədqiqatın metodları.** Tədqiqat prosesində praktik ( pedaqoji müşahidə, pedaqoji müsahibə, anketləşdirmə, fəaliyyət məhsullarının öyrənilməsi, pedaqoji sənədlərin öyrənilməsi), nəzəri (nəzəri təhlil, nəzəri tərkib,təhlil-tərkibin vəhdəti, induksiya və deduksiya), eksperimental

(müəyyənləşdirici, yoxlayıcı, dəyişdirici və çarpazlaşan),tarixi müqayisəli (pedaqoji fikir tarixinin öyrənilməsi, pedaqoji prosesin inkişafının öyrənilməsi) və riyazi (qeydəalma, nizamlama, qiymətləndirmə) elmi-tədqiqat üsullarından xüsusi səy və metodik ustalıqla istifadə edilmişdir.

**Tədqiqatın metodoloji əsasları.**Tədqiqatın metodoloji əsasını Azərbaycanın folklor nümunələri, görkəmli şəxsiyyətlərin düşünmə və nümunə haqqında fikirləri, Azərbaycan respublikasının məktəb, müəllim, təlim-tərbiyə haqqında direktiv göstərişləri, fəlsəfə, hüquq, psixologiya, sosiologiya, etika, estetika və başqa elm sahələrindəki insani fəaliyyət olan düşüncənin və görünən, müşahidə olunan, duyulan nümunənin təlim-tərbiyəyə təsiri ilə bağlı yetkin fikir və mülahizələr təşkil edir.

**Müdafiəyə aşağıdakı müddəalar təqdim olunur:**

- Sağlam düşünmənin və görünən, müşahidə olunan, duyulan müsbət nümunənin mahiyyət və məzmun dəyərini, insanın mənəvi zənginləşməsinə, kamil şəxsiyyət kimi formalaşmasına təsir dəyərini müəyyən etmək;
- Təlim-tərbiyənin səmərə və keyfiyyətinin yüksəldilməsində düşündürərək öyrətməyin və görünən, müşahidə olunan, duyulan müsbət, ideal nümunələrlə təsir göstərməyin təlimdə şüurluluq və fəallığın yüksəldilməsinə müsbət təsirini aşkarlamaq;
- Düşündürərək öyrətməyin, düşünərək öyrənməyin səmərə və keyfiyyətinin yüksəldilməsində idrak motivlərinin və tələbatlarının rolunu müəyyənləşdirmək;
- Müəllimin peşəkarlıq baxımından və mənəvi dünyası ilə ideal görünən, müşahidə olunan, duyulan nümunə olmasının təlm-tərbiyənin yüksəldilməsinə göstərdiyi müsbət təsiri aşkarlamaq;
- İnsani fəaliyyət olan düşüncənin məqsədə yönəldilməsi priyomlarını və yollarını, üsullarını, tərzlərini, vasitələrini müəyyənləşdirmək;
- Düşüncəli fəaliyyətin təminində tərbiyəedənlərin bütün çalarlarda görünən, müşahidə olunan, duyulan ideal müsbət nümunə olmalarının təlim-tərbiyəyə göstərdiyi müsbət təsiri müəyyənləşdirmək;
- Düşündürərək öyrətməyin, düşünərək öyrənməyin, görünən, müşahidə olunan, duyulan ideal müsbət nümunələrlə təsir göstərməyin metod, yol və vasitələrini təcrübədə yoxlanılması.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan pedaqoji fikir tarixində ilk dəfə olaraq “Təlim-tərbiyənin səmərəliliyinin artırılmasında şagirdləri düşündürərək öyrətməyin və nümunənin elmi-nəzəri əsasları” mövzusu ətraflı şəkildə, təfərrüatı ilə tədqiq edilərək real nəticələrə gəlinmişdir. Tədqiqatın

elmi yeniliyini təlim-tərbiyənin səmərəliliyinin artırılmasında şagirdləri düşündürərək öyrətməyin pedaqoji, psixoloji, fizioloji əsaslarının, düşündürərək öyrətməyin şüurlu öyrənməyin əsası olmasının, düşüncənin təlim-tərbiyə dəyərinin elmi-nəzəri cəhətdən geniş izah və şərhi təşkil edir. Dissertasiyada ilk dəfə olaraq təlim motivlərinin düşüncənin əsası olması, düşüncənin məqsədə yönəldilməsi priyomları və yolları məsələləri elmi, pedaqoji, psixoloji və fizioloji baxımdan təhlil edilmişdir. Sağlam düşüncənin və müəllimin peşəkarlıq baxımından nümunəviliyinin bir-birini şərtləndirməsi, bir-birinin təkamülünə, inkişafına kömək və yardım göstərməsi məsələləri elmi-pedaqoji baxımdan ətraflı şəkildə dəyərləndirilmişdir. Şəxsiyyətin şəxsiyyətdən təşəkkül taparaq formalaşması, pedaqoji kollektiv üzvlərinin və ailədə yaşlıların sağlam düşüncəyə yiyələnməsinin və habelə nümunəvi fəaliyyətinin təlim-tərbiyə dəyəri və bir sıra bu mövzu ilə əlaqədar məsələlər ilk dəfə olaraq tədqiqat obyektinə çevrilmişdir. Dissertasiyada həmçinin beyin fəaliyyəti olan düşüncənin, görünən, müşahidə olunan, duyulan müsbət nümunənin pedaqoji, psixoloji, fizioloji əsaslarının müəyyənləşdirilməsi ilə bağlı aşkarlanmış problem məsələlər tədqiqatın yeniliyinə aid olan məsələlərdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Elmi tədqiqatın nəzəri əhəmiyyətini təlim-tərbiyənin səmərəliliyinin artırılmasında düşündürərək öyrətməyin, düşünərək öyrənməyin, müəllimin peşəkarlıq baxımından heyrətləndirici, ibrətamiz, nəsihəhətamiz görünən, müşahidə olunan, duyulan nümunəviliyinin didaktik dəyərini, elmi-nəzəri məsələlərini görkəmli klassik pedaqoqların fikir və mülahizələri ilə elmi ictimaiyyətin yaxından tanış edilməsi təşkil edir. “Təlim-tərbiyənin səmərəliliyinin artırılmasında düşündürərək öyrətməyin və nümunənin elmi-nəzəri əsasları” mövzusu ilə bağlı aparılan axtarışlar elmi-nəzəri cəhətdən bir də ona görə faydalıdır ki, o, təlim-tərbiyə işi ilə məşğul olanları düşündürərək öyrətməyin, düşünərək öyrənməyin, görünən, müşahidə olunan, duyulan nümunələlə təsir göstərməyin məqsədyönlü üsul və vasitələri ilə yaxından tanış edir. Elmi tədqiqat işi aparılan təlim-tərbiyə işinin pedaqoji-psixoloji baxımdan elmi zəmin üzərində qurulmasına kömək göstərir. Elmi-tədqiqat öz oxucularının sağlam düşüncədən və görünən, müşahidə olunan, duyulan müsbət nümunədən elmi-nəzəri cəhətdən bəhrələnmələrinə səbəb olacaqdır.

**Elmi-tədqiqatın praktik əhəmiyyəti.** Tərbiyəedənlərin ( müəllim, tərbiyəçi, valideyn və b.) tədqiqatın nəticələri ilə tanış olmaları problem üzrə işin sistemli, planlı, mütəşəkkil, səmərəli təşkilinə, nəticə etibarı ilə məktəblilərin düşündürülərək öyrədilməsinə, müsbət nümunələr əsasında tərbiyə edilməsinə öz müsbət təsirini göstərəcəkdir. Bu da tədris olunan

proqram materialının şagirdlərə şüurlu şəkildə mənimsədilməsinə, təlimin təhsilləndirici tərbiyələndirici, inkişafetdirici vəzifələrinin müvəffəqiyyətli həllinə səbəb olacaqdır.

Müəllimin didaktik, akademik, konstruktiv, kommunikativ, təşkilatçılıq, iradi-emosional qabiliyyətlərinin birlikdə və ayrı-ayrılıqda təlim-tərbiyəyə göstərdiyi müsbət təsirinin mahiyyət və məzmun dəyərinə dair dissertasiyada irəli sürülən müddəalardan pedaqoji kollektiv üzvləri bəhrələnəcəkdir. Elmi-tədqiqatla tanış olanlar biləcəklər ki, qabiliyyət bir və ya bir neçə fəaliyyətin müvəffəqiyyətlə icrası üçün olan psixi prosesdir. Qabiliyyət fitri istedadla bağlı məsələlərdən ən başlıcasıdır. Müəllimin xatırladılan qabiliyyət nümunələrinin görünməsi, müşahidə olunması, duyulması pedaqoji prosesin səmərə və keyfiyyətini qat-qat yüksəltmiş olur.

**Tədqiqat nəticələrinin aprobasiyası.** Tədqiqatın nəticələri ilə bağlı yerli qəzet səhifələrində, metodik məcmuələrdə, metodik vəsaitlərdə dərc olunmuş yazılar, hazırlanmış tövsiyyə məktubları, elmi-praktik konfranslarda oxunan məruzələr, metodik yığıncaqlarda aparılan söhbətlər müəllim və tərbiyəçilərdə dərin maraq doğurmuş və onlar problemin müvəffəqiyyətli həlli cəhətdən faydalanmışlar.

**Tədqiqatın quruluşu.** Dissertasiya giriş, 4 fəsil, o cümlədən 29 yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyatların siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**“Giriş”**də tədqiq olunmuş mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti, mövzusu, məqsəd və vəzifələri, fərziyyəsi, metodoloji əsaslarıı, elmi, nəzəri, praktik əhəmiyyəti, müdafiəyə çıxarılan əsas müddəaları, istifadə olunmuş praktik, nəzəti, tarixi xronoloji, eksperimental, riyazi elmi-tədqiqat metodları haqqında məlumat verilir.

Dissertasiyanın **“Təlim-tərbiyənin səmərəliliyinin artırılmasında şagirdləri düşündürərək öyrətməyin elmi-nəzəri əsasları”** adalanan I fəsli 10 yarımfəsli özündə birləşdirir. I yarımfəsil **“Düşündürərək öyrətməyin pedaqoji-psixoloji əsasları”** adlandırılmışdır. Burada elmi, pedaqoji, pisixoloji, fəlsəvi və digər ədəbiyyatlar araşdırılaraq düşündürərək öyrətməyin pedaqoji-psixoloji əsasları məsələlərinə daha əhatəli şəkildə aydınlıq gətirilmişdir. Xatırladılmışdır ki, təhsil pedaqoji prosesin ayrılmaz tərkib hissəsidir. Təhsil ocağında şagirdlərin təhsillənməsini, tərbiyələnməsini, psixoloji inkişafa nail olunmasını günün, zamanın tələblərinə müvafiq şəkildə təşkil etmək üçün sağlam düşüncə əsasında yeniliklərdən bacarıqla, metodik ustalıqla istifadə etmək zəruridir,

lazımdır və hətta gərəklidir. Bildirilir ki, şagirdlərin fərdi psixoloji xüsusiyyətlərini bilərəkdən düşündürərək öyrətmək təlimin təhsilləndirici, tərbiyələndirici, inkişafetdirici vəzifələrinin müvəffəqiyyətli həllinə real zəmin, şərait yaradır və habelə təminat verir. Şagirdləri düşündürərək öyrətmək, düşündürərək bütün tərbiyə komponentləri baxımından görünən. müşahidə olunan, duyulan ideal nümunələr əsasında tərbiyələndirmək, düşündürərək sağlam düşüncə əsasında inkişaf etdirmək onların bilik, bacarıq və vərdişləri şüurlu şəkildə mənimsəmələrinə, unutqanlığın qarşısının alınmasına sirayət edir. Müəllim şagirdlərə düşünərək, fikirləşərək öyrənməyin mexaniki öyrənmədən fərqini açıqlamaqla şüurlu öyrənməyə həvəs və səyi artırmağa daim diqqət və qayğı göstərməlidir. Düşünmək.fikirləşmək, zəka əsasında əqli nəticələrə nail olmaq beyin fəaliyyətidir. Rus pedaqogikasının görkəmli nümayəndəsi K.D.Uşinski xatırladırdı ki, "öyrənməyi öyrətmək" vəzifəsinin müvəffəqiyyətli həlli uşaqları müstəqil düşünməyə, müstəqil fikir yürütməyə səfərbər edir.

I fəslin ikinci yarım fəsli **"Düşüncə və onun psixoloji-fizioloji əsasları"** adlanır. Bu yarımfəsildən aydın olur ki, düşünmə yalnız insana məxsus olan beyin fəaliyyətidir. Kamil insanın beyni dünyada ən kamil aparat kimi dəyərləndirilir. Beyin fəaliyyəti olan düşünmə prosesində insanın baş beyin yarımkürəsində təhlil və tərkibin vəhdəti kimi psixi proseslər fəaliyyətə başlayır. Düşünmə prosesində insanın baş beyin yarımkürəsinin alt və üst qatında müzakirə olunan, öyrənilən fakt və hadisə haqqında təhlil etmə, tərkib etmə, qarşılaşdırma, tutuşdurma səciyyəli fikri fəaliyyətin əsası sayılan müqayisə əməliyyatları və habelə digər fikri. hissi əməliyyatlar gedir. Beyində gedən bu fikri və hissi əməliyyatlar düşünməyin, fikirləşməyin fizioloji, psixoloji əsasını təşkil edir. Düşünmə əməliyyatı zamanı öyrənilən məsələ ilə bağlı baş beyin yarımkürəsində ilk növbədə sadə fikri və hissi əlaqələr, öyrənmənin dərinləşdiyi anlarda isə daha geniş fikri və hissi əlaqələr yaranmağa başlayır. Fikri və hissi əlaqələrin genişliyi düşünməyin səviyyəsini, keyfiyyətini yüksəldir.

I fəslin **"Düşündürərək öyrətmək öyrənməyin və öyrənilən biliyin düşüncənin əsası olması" adlı III** yarımfəslində düşündürək öyrətməyin səmərəli öyrənməyin əsası olması və habelə öyrənilən biliklərin düşüncənin əsası olması məsələləri elmi dəlillər, faktlarla öz izah və şərhini tapmışdır. Xatırladılır ki, müəllim fəaliyyəti olan düşündürərək öyrətmək düşünərək öyrənməyin reallaşmasına zəmin yaradır. Düşündürərək öyrətmək tədris olunan mövzunun nəticə etibarı ilə tam, bütöv, hərtərəfli öyrənilməsinə səbəb olmalıdır. Müəllim bilməlidir ki, "hissə-hissə yox, tədris materialının tam öyrənilməsi, düşüncəli öyrənməyə səbəb olur."

Yaxşı, sağlam düşüncəyə yiyələnmək üçün çoxçalarlı bilikləri dərindən mənimsəməyə ehtiyac vardır. Bunun üçün "bilik verməzdən əvvəl hər bir uşağa fikirləşməyi, qavramağı, müşahidə etməyi öyrətmək lazımdır."[1]

Düşündürərək öyrətməkdə psixi proseslərdən biri olan diqqətin rolu, dəyəri də xeyli böyükdür. Bu cəhətdən də müəllim pedaqoji prosesdə şagirdlərin diqqətini təlim əməyinə emosionalcasına səfərbər etmək səriştəliliyinə malik olmalıdır. O, bilməlidir ki, diqqət ruhumuzun elə bir qapısıdır ki, şüurumuzda olan hər bir şey mütləq buradan keçir, deməli təlimin hər bir kəlməsi bu qapıdan keçmədən uşağın ruhuna daxil ola bilməz. Uşinskinin bildirdiyi kimi, aydın məsələdir ki, uşağı bu qapını açıq saxlamağa alışdırmaq birinci dərəcəli əhəmiyyətli işdir, təlimin bütün müvəffəqiyyəti buna nail olmaq üzərində qurulur.

I fəslin dördüncü yarımfəsli "**Ağıl tərbiyəsi ilə bağlı düşüncələr**" adlanır. Pedaqoji ədəbiyyatlar təsdiqləyir ki, insan düşüncəsinin məhsulu olan ağlın birinci göstəricisi qazanılan çoxçalarlı biliklər, ikinci göstəricisi isə biliyin tətbiq edilməsi nəticəsində çevrildiyi bacarıq və vərdişlərdir. Pedaqoji, bədii ədəbiyyatlar və folklor nümunələri ilə aşkarlanaraq sübuta yetirilir ki, xalqımız, o cümlədən də dünya xalqları bütün tarixi dövrlərdə insan zəkasının, düşüncəsinin məhsulu olan ağılı yüksək dəyərləndirmişlər. Bu cəhətdən də şəxsiyyət bütövlüyünün təminində hər birinin özünəməxsus yeri olan tərbiyə komponentləri içərisində ağıl tərbiyəsi birinci yerdə durur. Fiziki sağlamlığa və habelə sağlam düşüncəyə malik insanda formalaşan ağıl bütün tərbiyə komponentlərinin təkamül tapmasına, yüksək şəkildə inkişaf etməsinə yaxından köməklik göstərir.

Xalqımızın, Vətənimizin ağrı-acısına məlhəm qoymaq, azadlığımızı, müstəqilliyimizi qoruyub saxlamaq, itirilmiş torpaqlarımızı geri qaytarmaq, inkişafa, tərəqqiyə nail olmaq üçün fasilələrə yol vermədən sağlam düşüncənin məhsulu olan ağıla çoxçalarlı yol və vasitələrdən istifadə edərək yiyələnmək lazımdır.

Müdrik ata-babalarımız ağılın və onun əks qütbü olan ağılsızlığın mahiyyət və məzmun dəyərini aşağıdakı kimi vurğulayır:

Bu dünyada maldan-puldan,
Bir ağıllı baş yaxşıdır.
Anlamayan bir kəllədən,
Bircə qara daş yaxşıdır.

---

[1] Məmmədov F.M., Əsədova F.M. Pedaqogikadan məsələ və misallar // Bakı: Maarif, 1993, səh.13

**"1.5. Şagirdləri düşündürərək onlara öyrənməyin yollarının öyrədilməsi"** yarımfəslində qeyd olunur ki, pedaqoji prosesin ən başlıca məsələlərindən biri müəllimin sağlam düşüncəyə əsaslanaraq öyrənməyin, tərbiyə etməyin, psixoloji inkişafa nail olmağın yollarını, üsullarını, vasitələrini özünün yaxşı, mükəmməl bilməsi ilə yanaşı, onları şagirdlərə (tələbələrə) mənimsətməklə onların müstəqilliyinə, fəallığına, təşəbbüskarlığına nail olmaqdan ibarətdir. Biliyə, bacarığa, vərdişə, psixoloji inkişafa yiyələnməyin yollarının şagirdlərə (tələbələrə) mənimsətmək sinifdə (auditoryada) şüurluluğu, fəallığı, təşəbbüskarlığı qat-qat yüksəltmiş olur. Hər bir müəllim bilməlidir ki, "əgər şagird öz təlim əməyini səmərəli təşkil edə bilmirsə, müstəqil işləməyi bacarmırsa, təlimdə müvəffəqiyyət qazana bilməz."[1]

Müəllim şagirdlərə (tələbələrə) öyrənməyin yollarını səmərəli şəkildə öyrətmək üçün, onları düşündürərək əqli mühakimələrə səfərbər etmək üçün metodik ustalığa malik olmalı, çoxçalarlı pedaqoji, psixoloji biliklərə fasilələrə yol vermədən dərindən yiyələnməli, təlim-tərbiyəsi ilə məşğul olduğu uşaqların (tələbələrin) fərdi psixoloji xüsusiyyətlərini dərindən bilməli və habelə onlara əvvəlcədən müşahidə aparmağın, dərslik üzərində işləməyin, qavramağın, düşünərək mühakimə yürütməyin, müvafiq anlayışlara yiyələnməyin, ümumiləşdirmələr, müqayisələr aparmağın yollarını öyrətməlidir. "Bilik verməzdən əvvəl hər bir uşağa fikirləşməyi, qavramağı, müşahidə etməyi öyrətmək lazımdır. Eyni zamanda hər bir şagirdin sağlamlığını, fərdi xüsusiyyətlərini də yaxşı bilmək lazımdır, çünki, bunsuz normal təlim vermək olmaz."[2]

**"1.6. Düşüncənin təlim-tərbiyə dəyəri" yarımfəslində q**eyd olunur ki, insanın həyatında sağlam düşüncənin rolu, dəyəri xeyli böyükdür. Görkəmli, dünya şöhrətli filosof Epikur bildirirdi ki, hər bir fəallığın mənbəyi sağlam düşüncədir. Sağlam düşüncə hətta fəlsəfədən də dəyərlidir.

Qoca üçün də, cavan üçün də xoşbəxt, firavan həyatın yaradıcısı sağlam düşüncədir. Hər bir insan uşaqlıq, gənclik illərindən sağlam düşüncəyə yiyələnərək, ona əsaslanaraq, söykənərək fəaliyyət göstərməlidir ki, keçən günlərə nəzər-diqqət yetirərkən peşmançılıq və habelə xəcalət hissi keçirməsin. Sağlam düşüncəyə yiyələnmək hər bir insanı müdrikləşdirir, ona şahrah, işıqlı yol göstərir. Qədim yunan filosofu Epikur

---

[1] İsmixanov M.A. İbtidai təlimdə şagirdlərə müstəqil iş bacarıqlarının aşılanması. Bakı: Maarif nəşriyyatı, 1987, səh. 5
[2] Suxomlinski V.A. Ürəyimi uşaqlara verirəm. Bakı: Maarif, 1979, səh.17

(e.ə.342-271) çox haqlı olaraq xatırlatmışdır ki, "hər bir firavanlığın mənbəyi sağlam düşüncədir", "xeyirli əməllər onun məhsuludur."[3]

I fəslin VII yarımfəsli **"Təlim motivləri düşüncənin mənbəyidir"** adını daşıyır.

Dahi Nizami Gəncəvi sağlam düşüncənin təlim-tərbiyədə rolunu çox yüksək dəyərləndirirdi. "Xoşdur yüz qalpaqdan bir şah papağı, yüz iti qılıncdan fikrin bıçağı" misralarının müəllifi Nizami Gəncəvi insanın sağlam düşüncə əsasında düzgün fikir yürütmə qabiliyyətini kamil şəxsiyyət bütövlüyünün formalaşdırılmasında vacib və gərəkli hesab edirdi. Təhsilləndirmə, tərbiyələndirmə, psixoloji inkişafa nail olma vəzifələri yerinə yetirən təlim prosesində müəllimin ideal nümunələri dinləyicilərdə idrak motivlərinin formalaşmasına səbəb olur. Formalaşan bu təlim motivləri şagirdləri (tələbələri) xüsusi fəallıq, cəfakeşlik, aludəçilik zəminində öyrənməyə, axtarıb tapmağa, reallıqları düşünərək, mühakimə yürüdərək açıqlamağa səfərbər edir. Rəngarəng, çoxçalarlı təlim motivləri müsbət və mənfi olmaqla iki qrupa ayrılır. Öz fənnini, onun tədrisi metodikasını dərindən bilən, şagirdlərin (tələbələrin) qəlbində xeyirxah əməlləri ilə xüsusi məhəbbət tonqalı şöləndirən müəllimlər müsbət təlim motivlərindən ustalıqla istifadə edərək nəzərdə tutulmuş proqram materiallarını emosionalcasına dinləyicilərinə mənimsədirlər. Müsbət təlim motivləri əsasında aşılanan bilik, bacarıq və vərdişlər prosesində cansıxıcılıq aradan qalxır, müəllim, şagird (tələbə) fəaliyyəti düzgün tənzimlənmiş olur. Bu cəhətlərdən də müsbət təlim motivləri pedaqoji prosesdə düşünərək, mühakimə yürüdərək öyrənmənin bir növ tənzimləyicisi və habelə nizamlayıcısıdır. Mahiyyət etibarilə "...motivlər fəaliyyətə müəyyən tələbatların təmin olunması ilə bağlı təhriklərdir. Əgər tələbatlar bütün insan fəallığı növlərinin mahiyyətini, mexanizmini təşkil edirsə, motivlər bu mahiyyətin konkret təzahürləri kimi meydana çıxır. İnsanın davranışını nəzərdən keçirərkən, əməllərini təhlil edərkən onların motivlərini aydınlaşdırmaq zəruridir." [1]

I fəslin 8-ci yarımfəslində **"Düşüncənin məqsədə yönəldilməsi priyomları və yolları"** məsələlərindən bəhs olunur. Qeyd edilir ki, "Hərzəkar, boşboğaz hazırcavabdan, Yaxşıdır düşünüb danışan insan" misralarının müəllifi Sədi Şirazi həyatda, pedaqoji prosesdə sağlam düşüncənin məqsədə yönəldilməsinin faydası, məzmun dəyəri ilə bağlı dəyərli fikir və

---

[3] Nicat Ə. Dünya filosofları. Bakı: Sabah, 1995, səh.143

[1] Ümumi psixologiya (A.V. Petrovskinin redaktorluğu ilə). Bakı: Maarif, 1982, səh.115

mülahizələr söyləmişdir. Şairin “Sözü düşünməmiş söhbətə keçmə, Yüz dəfə ölçməsən bir dəfə biçmə” misraları fikrimizi bir daha təsdiqləyir. Məktəblinin tədris fəaliyyəti müəyyən hərəkətlər (əməllər), tərzlər, vasitələr, üsullar vasitəsi ilə həyata keçirilir. Üsul vasitəyə, tərzə nisbətən geniş anlayışdır. Düşünmə, fikirləşmə daha mühüm təfəkkür əməliyyatlarıdır. Düşünmə prosesində insan öz beynində təhlil-tərkib, təhlil və tərkibin vəhdəti əməliyyatları aparmağa başlayır. “Təhlil və tərkib proseslərinin məhsuldarlığı bir sıra amillərdən asılıdır. Bu amillər sırasında yaradıcılıq niyyəti mühüm yer tutur. Bu amillərin müvəffəqiyyətlə həyata keçirilməsində yaradıcılıq meylinin, niyyətinin aydın, düşünülmüş və konkret olmasından çox-çox asılıdır. Yaradıcılıq niyyəti nə qədər aydın olsa, təhlil və tərkib prosesi bir o qədər səmərəli olar.”[1]

Öyrənilən təlim materialının ətraflı araşdırılması, dəqiqliklə üzərində təhlillərin aparılması şagirdlərin təfəkkür fəaliyyətini ağlın sönməz məşəli kimi dəyərləndirilən müqayisə etmək bacarığının inkişafına səbəb olur. Buradan yekdil bir nəticəyə gəlmək olur ki, öyrənilən məsələ üzərində dəqiq araşdırmalar, təhlillər aparmaq vacibdir, gərəklidir. “Təcrübə göstərir ki, qrammatik təhlili düzgün aparan şagirdlər qrammatik müqayisəni aparmaqda da çətinlik çəkmirlər.”[2]

I fəslin doqquzuncu yarımfəsli **“ Düşündürərək öyrətmək şüurlu öyrətməkdir”** adlanır.

Düşündürərək öyrətmək şagirdləri (tələbələri) mexaniki öyrənməkdən çəkindirir. Düşündürərək öyrətmək tədris olunan mövzunu şüurlu şəkildə mənimsətməkdir, unutqanlığın, təlimdə geridəqalmanın qarşısını almaqdır, şagirdləri axtarıcılığa, cəfakeşliyə, müstəqilliyə, təfəkkür fəaliyyətinə səfərbər etməkdir. Təlim prosesində şagirdlərin (tələbələrin) düşünərək öyrədilməsində şagirdlərə kitabla işləmək, əsas fikri tapmaq, hekayənin planını çıxarmaq və s. bacarıqlara yiyələndirilməsi pedaqoji prosesin səmərə və keyfiyyətinin yüksəldilməsində böyük didaktik dəyərə malikdir. “Təlim fəaliyyəti üzrə bacarıq və vərdişləri formalaşdırmadan şagirdlərin bilikləri müvəffəqiyyətlə mənimsəmələri və yaradıcı imkanlarının inkişafı qeyri-mümkündür. Təlim-tərbiyə prosesinin keyfiyyətinin daha da yaxşılaşdırılması kompleksində oxu bacarığının formalaşdırılması vəzifəsi, müstəqil olaraq biliklərin zənginləşdirilməsi, elmi-texniki informasiyanın

---

[1] Əlizadə Ə. Şagirdlərdə təxəyyülün inkişafı və tərbiyəsi. Bakı: Maarif, 1965, səh. 8

[2] Abdullayeva M. Qrammatik müqayisə bacarığının qrammatik ümumiləşdirmədə yeri // Pedaqoji Universitetin Xəbərləri. Bakı: 2000, № 4, səh. 66

sürətli axınında istiqamət götürmək kimi dəqiq məsələlər göstərilmişdir."[3]

I fəslin son yarımfəslində düşündürərək öyrətmə prosesində məktəb qarşısında hansı vəzifələrin dayanması məsələlərinə aydınlıq gətirilir.

Dissertasiyanın II fəsli "**Təlim-tərbiyədə nümunənin elmi-nəzəri əsasları və pedaqoji kollektiv üzvlərinin şəxsi nümunələrinin rolu**" adlanır. "2.1. **Nümunənin mahiyyəti, məzmunu və elmi-nəzəri əsasları**" yarımfəslində göstərilir ki, tərbiyə işində nümunənin rolu, dəyəri xeyli böyükdür. Pedaqoji ədəbiyyatlar təsdiqləyir ki, tərbiyəedənin nümunəsi görünür, müşahidə olunur və duyulur. Tərbiyəvi təsir inkişaf etmiş xarakterin yeni təşəkkül edən xarakterə təsiri deməkdir, xarakter isə insanın şəxsiyyətindədir. Ona görə, tərbiyədə hər şey tərbiyəçinin şəxsiyyətinə əsaslanmalıdır. "Tərbiyə qüvvəsi ancaq insan şəxsiyyətinin canlı mənbəyindən axır. Heç bir nizamnamə və proqram müəssisənin heç bir süni orqanizmi nə qədər hiyləgərcəsinə qurulmuş olsa da, tərbiyədə şəxsiyyətin təsirini əvəz edə bilməz."[1]

Kiçik yaşlı uşaqların yaşlı nəslin nümunələrindən bəhrələnməsi təbii olaraq ehtiyacdan doğur. Yaşlılarla balacalar arasında bu təbii təmas olmasa bütün insaniyyətlilik məhv olub gedər. "Tərbiyə işində nümunənin xüsusi mövqeyi və rolu vardır... Hər bir pedoqoji təsiri uşaq öz gördükləri, həyatda rastlaşdıqları ilə müqayisə edir, bu qaydalara əksər adamların, xüsusilə onların rəğbət bəslədikləri adamların əməl etdiklərini gördükdən sonra isə onları özlərinin davranış normasına çevirir. Nümunənin başqa bir xüsusiyyəti də budur ki, uşaq təkcə tərbiyəçidən deyil, ətrafda baş verənlərin hamısından nümunə götürür."[2]

II fəslin ikinci yarımfəsili "**Tərbiyədə nümunənin pedaqoji və psixoloji əsasları**" adlanır.

Böyük Çex pedaqoqu Y.A.Komenski xatırladırdı ki, insan təbiətin bir hissəsidir. Ona görə də onun ümumi qanunlarına tabe olmalıdır, bu qanunları tərbiyədə nümunə tutmalıdır. Buradan belə bir nəticə çıxarmaq olar ki, tərbiyəedənlərin uşaqlar üçün ideal nümunə olmaları pedoqoji baxımdan

---

[3] Abdullina A. Oxu dərslərində təlim əməyi bacarıqlarının formalaşdırılması // İibtidai məktəb və məktəbəqədər tərbiyə. Bakı: 1989, № 6, səh.13-17

[1] Uşinski K.D. Seçilmiş əsərləri. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1953, səh. 21

[2] Əliyev İ. Azərbaycan etnopedaqogikası. Bakı: Elm və təhsil, 2009, səh.107

qanunauyğun haldır. Xatırlatdığımız bu fikri ata-babalarımızın deyimləri bir daha təsdiqləyir. Məsələn, atalar sözlərində deyilir: "Nə tökərsən aşına, o da çıxar qaşığına" və s.

Müəllim gözəl, nikbin hisslərlə yaşamaq baxımından ideal nümunə olmaqla yanaşı, şagirdlərlə səmimi ünsiyyətə girmək səriştəliliyinə malik olmalıdır. Öz pedoqoji ustalığı, mərifəti ilə uşaq qəlbinə yol tapıb onlarla səmimi şəkildə mənəvi ünsiyyətə girməyi, uşaq qəlbindəki çırağı yandırmağı bacarmalıdır. Bütün tərbiyəedənlər bilməlidir ki, tərbiyənin yaxşı nəticə verməsi tərbiyəçinin yaxşı hisslərlə yaşaması və uşaqlarla mənəvi yaxınlığa, mənəvi ünsiyyətə girmək səriştəliliyindən qat-qat asılıdır. "Müsbət əxlaqi hisslərlə tərbiyə etmək üçün elə situasiya yaratmaq lazımdır ki, şagird qüvvətli müsbət nümunə ilə qarşılaşsın, həmin prosesdə iştirak etsin və müvafiq hisslər keçirə bilsin."[1]

II fəslin üçüncü yarımfəslində **"Şəxsiyyət şəxsiyyətdən təşəkkül taparaq formalaşır"** məsələləri öz geniş izah və şərhini tapmışdır.

Dünyaya göz açmış uşaqlar məktəbəqədər yaş dövründə və ibtidai məktəb illərində təqlidçiliyə daha çox meyilli olurlar. Onlar böyüklərin şəxsi nümunələrindən bəhrələnərək kamilləşirlər. Onlar ədəb-ərkan, davranış normalarına yaşlıların timsalında yiyələnərək formalaşırlar. Bu cəhətdən övladlarını ədəb-ərkanlı, kamil insan kimi görmək arzusunda, istəyində olan valideynlər, müəllimlər, tərbiyəçilər və habelə bütün yaşlılar uşaqlarda görmək istədikləri insani keyfiyyətləri özlərində cəmləşdirməlidirlər. Bilməlidirlər ki, K.D.Uşinskinin xatırlatdığı kimi şəxsiyyət şəxsiyyətdən təşəkkül taparaq formalaşır. Onların heç bir iş və əməli təsirsiz qalmır, övladlarımızda öz əks-sədasını tapmış olur.

II fəslin dördüncü yarımfəslində **"Tərbiyədə nümunənin rolu və təlim-tərbiyədə müəllimin şəxsi və peşəkarlıq nümunəsinin təsir gücü"** məsələlərinə aydınlıq gətirilir.

Hamıda rəğbət, xoş ovqat və heyrət hissi doğuran müsbət heyrətamiz nümunələr uşaqlarda anlaşılmazlıqları aradan qaldırır, onları reallıqları düzgün dərk etməyə istiqamətləndirir, həyat hadisələri barədə düzgün mühakimələr yürütməyə və real nəticələr çıxarmağa səfərbər edir. Bu cəhətdən təlim və tərbiyə işi ilə məşğul olanlar övladlarımızı öz müsbət, heyrətamiz şəxsi nümunələri ilə gələcəyə hazırlamalıdırlar. Bütün təlim və tərbiyə işi ilə məşğul olanlar bilməlidirlər ki, "insanı tərbiyə etmək onda perspektiv yolları tərbiyə etməkdir. Buna görə də məktəb də, ailə də qarşıya elə bir perspektiv məqsəd qoymalıdır ki, onun həyata keçirilməsində

---

[1] Həmzəyev M.Ə. Pedoqoji psixologiya. Bakı: Maarif, 1991, səh. 58

müvəffəqiyyətsizlik baş verməsin, gələcək perspektivlər üçün zəmin yaratsın."[2]

Mücərrəd təfəkkürləri lazımi səviyyədə formalaşmadıqlarından və dünyabaxışlarının bəsitliyi ucbatından uşaqlar ədəb-ərkan qaydalarına, milli bəşəri dəyərlərimizə yiyələnmələri üçün tərbiyəedənlərin və eləcə də müdrük yaşlı nəslin şəxsi nümunələrindən, onların sosial həyat təcrübəsindən bəhrələnməyə, faydalanmağa möhtacdırlar. Böyük Fransız alimi A.Peron "Aktinumdan insana qədər" adlı əsərində çox haqlı olaraq xatırladır ki, əgər planetimizdə fəlakət baş versə və bu fəlakət nəticəsində yaşlı nəsil məhv olub yalnız kiçik uşaqlar qalsa, insan nəsli kəsilməsə də insanlıq tarixi pozular, bəşəriyyət öz insaniyyətliliyini itirmiş olardı."[1]

Nümunə xüsusi qüvvəyə malik tərbiyə metodudur. Onun təsiri hadisələrin məlum qanunauyğunluqlarına əsaslanır, heç bir çətinliklə rastlaşmadan qavranılır və şüurda öz əksini tapır, nitq vasitəsilə maddiləşir. "Nümunə birinci siqnal sistemi, söz isə ikinci siqnal səviyyəsində təsir göstərir. Nümunə fəaliyyəti aktivləşdirir."[2]

II fəslin beşinci yarımfəslində **"Məktəb rəhbəri və sinif rəhbərinin şəxsi nümunəsinin təlim-tərbiyəyə təsiri"** məsələlərindən bəhs olunur.

Məktəb rəhbəri təhsil ocağında tərbiyəçilər tərbiyəçisi olduğundan, müəssisədə hər bir işə cavabdehlik daşıdığından o, həm pedoqoji, həm valideyn və həm də şagird kollektivinə ideal, heyrətləndirici, cəlbedici şəxsiyyət nümunəsi olmalıdır. Direktorun dünyagörüşü, intellektual səviyyəsi, pedaqoji səriştəliliyi ilə pedoqoji, valideyn və habelə bütün şagird kollektivinə ideal nümunə, örnək olması məktəbdə həm təlim, həm də tərbiyənin səviyyəsinin yüksəlməsinə real zəmin yaradır. Məktəb rəhbəri bilməlidir ki, "tərbiyəçinin cavan ruha təsiri elə bir tərbiyə qüvvəsidir ki, onu heç bir dərslik, heç bir əxlaqi nəsihət, heç bir cəza və rəğbətləndirmə əvəz edə bilməz."[3]

Məktəb rəhbəri ilə yanaşı sinif rəhbərinin də təlim-tərbiyə işinin səmərə və keyfiyyətinin yüksəldilməsində şəxsi nümunəsinin, habelə şəxsi

---

[2] Axundov S. "Perspektiv xətlər" məktəb təcrübəsində // "Azərbaycan məktəbi" jurnalı. Bakı: 1990, № 4, səh. 36

[1] Talıbov Y.R., Sadıqov F., Quliyev S. Gənclərin mənəvi tərbiyə problemləri. Bakı: Ünsiyyət, 1998, səh. 24

[2] Podlasıy İ.P. Pedaqogika, kniqa 2, Moskva: Vlados, 1999, səh.113

[3] Uşinski K.D. Seçilmiş əsərləri, Bakı: Azərnəşr, 1953, səh. 22

nüfuzunun rolu, dəyəri xeyli böyükdür. Sinif kollektivinin yaradılması, onun möhkəmləndirilməsi, fərdi və kollektiv vasitələrindən istifadə etməklə ayrılıqda hər bir fərdin, ümumilikdə bütün kollektivin təhsillənməsində, tərbiyələnməsində, habelə gərəkli insan kimi formalaşmasında sinif rəhbərinin heyrətləndirici ideal şəxsi nümunəsi, şəxsi nüfuzu çoxçalarlı pedaqoji prosesdə əvəzsiz təsir qüvvəsinə malikdir.

II fəslin son yarımfəslində böyük şəxsiyyət nümunəsindən bəhs olunur.

Dissertasiyanın III fəsli **"Ailədə yaşlıların şəxsi nümunəsinin elmi-nəzəri əsasları və onun tərbiyədə rolu"** məsələlərinə həsr olunmuşdur. Üçüncü fəsil 5 yarımfəsildən ibarətdir. Birinci yarımfəsildə **"Ailədə valideynlərin şəxsi nümunəsinin tərbiyəvi təsir gücü"** ilə bağlı məsələlərdən bəhs olunur.

Ailə ilk tərbiyə ocağıdır. Ailəni kiçik dövlət kimi də dəyərləndirirlər. İlk təşəkkülünü ata və ananın səmimi birliyindən, həmrəyliyindən tapan bu kiçik dövlətin özünəməxsus qanunları da mövcud olur. Bu qanunlara əməl etməyin sağlam düşüncəyə əsaslanması ailənin uzunömürlülüyünə, orada gözəl abı-havanın hökm sürməsinə şərait yaradır və təminat verir. Buna görə ailə sağlam düşüncəyə əsaslanaraqdan formalaşdırılmalıdır. Çünki qadın və kişidən ilk təşəkkülünü tapan bu ailənin üzvləri bir-biri ilə can dostudurlar. Bu candostluluq sağlam məhəbbətə söykənməlidir. Ər və arvaddan ilk təşəkkülünü tapan ailədə səmimiyyətin, candostluluğun möhkəmliyi yeni dünyaya gələn övlad üçün gözəl abı-hava yaratmış olur. Uşaq dünyaya göz açan ilk gündən ananı, atanı, nənəni, babanı və ailəyə yaxın olan digər yaşlı üzvləri görür. "Uşaqların tərbiyəsinin bünövrəsi ailədə, eyni zamanda məktəbəqədər tərbiyə ocaqlarında qoyulur."[1]

Bünövrənin möhkəmliyi ailədəki yaşlıların şəxsi nümunələrindən əsaslı şəkildə asılıdır. "Ailə böyüməkdə olan nəslin tərbiyəsində ilk məktəb, ata-analar isə ilk tərbiyəçidirlər."[2]

Uşaqların ədəb-ərkanlı böyüyüb boya-başa çatması bu ilk məktəb və tərbiyəçilərin görünən, müşahidə olunan, duyulan, heyrətamiz müsbət şəxsi nümunələrindən çox-çox asılıdır. Ailədə babanın, nənənin, atanın,

---

[1] Allahverdiyeva G. Ailədə uşaq bağçasının təşkilinə dair // "İbtidai məktəb və məktəbəqədər tərbiyə " jurnalı, Bakı: 1990, № 6, səh. 48

[2] Abbasov A. Valideynlərin pedaqoji mədəniyyətinin yüksəldilməsi gənc nəslin ailə həyatına hazırlanmasının mühüm vasitəsi kimi // "Azərbaycan məktəbi" jurnalı. Bakı: 1990, № 1, səh.19

ananın və habelə digər yaşlı üzvlərin bir-biri ilə münasibətinin, onlar arasında olan mənəvi psixoloji iqlimin, mənəvi ünsiyyətin, mənəvi yaxınlığın balacaların tərbiyəsində rolu, dəyəri xeyli böyükdür. Bilməliyik ki, "ailədəki qarşılıqlı münasibətlər, ata-ana, bacı-qardaş, ata-uşaqlar arasındakı münasibətlər, onların şəxsi keyfiyyətləri ailənin tərbiyə mühitini şərtləndirən mühüm amillərdən biridir."[3]

Ailə mühütünün yaxşı olması orada boya-başa çatmaqda olan balacaların tərbiyəsinə öz müsbət təsirini göstərir. Həyatın sınaqlarından müvəffəqiyyətlə çıxmış bir həqiqətdir ki, uşaqlar bütün tərbiyə komponentlərini təmasda, mənəvi ünsiyyətdə olan adamların şəxsi nümunələrindən əxz edirlər. Bu cəhətdən görüb-götürməyə meyilli olan uşaqların tərbiyəsində ailədəki bütün yaşlıların əqli, ideya-siyasi, əxlaqi, əmək, estetik, fiziki, iqtisadi, ekoloji, hüquqi tərbiyə komponetləri baxımından münbitliyi, davranış və hərəkətlərindəki ölçülü-biçililiyi, nizam-intizamlılığı yüksək tərbiyəvi təsir dəyərinə, gücünə malikdir. Ailədə ata və ana igidlik, mərdlik, cəsurluq baxımından övladlarına ideal nümunə olmalıdırlar.

III fəslin ikinci yarımfəsli **"Düzlük və doğruçuluq tərbiyəsində valideynin şəxsi nümunəsi"** adlanır.

Bütün tərbiyə çalarlarında olduğu kimi, düzlük və doğruçuluq tərbiyəsi sahəsində də valideynlərin şəxsi nümunələrinin rolu, dəyəri xeyli böyükdür. Atanın, ananın heç bir fəaliyyəti təsirsiz qalmır, uşaqlarda öz əks-sədasını tapır. Bu cəhətdən valideynlər bütün tərbiyə çalarlarında olduğu kimi, doğruçuluq və düzlüyü də öz iş və əməllərində yaşatmalıdırlar. Hər bir ata, ana bilməlidir ki, tərbiyəçinin cavan ruha təsirini heç bir dərslik, heç bir əxlaqi nəsihət, heç bir cəza və rəğbətləndirmə əvəz edə bilməz.

Doğruçuluq, düzlük əxlaqi norma olduğundan ailədə ata və ana öz iş və əməllərində doğruçuluğu yaşatmalı, bu ali duyğunun həm daşıyıcısı, həm ötürücüsü və həm də mahir təbliğatçısı olmalıdır. Doğruçuluq, düzlük insan mənəviyyatının bəzəyidir. Bu ali duyğu insanda iztirabları söndürür, insanı paklığa, halallığa səmtləndirir. "Doğulmaq – iztirab, qocalıq – iztirab, xəstəlik – iztirab, ölüm – iztirab, arzuladığını almamaq – iztirab, xoşa gəlməyənlə evlənmək – iztirab, xoşladığından ayrılmaq – iztirab, bir sözlə bütün varlıq – iztirabdır",- deyən hind filosofu Budda (e.ə.566-486) həyatda iztirabları söndürməyin yolunu düz görməkdə, doğru düşünməkdə, düz danışmaqda, düz hərəkət etməkdə, düz yaşamaqda, düz çalışmaqda

---

[3] Əliyeva G. Şəxsiyyətin formalaşdırılmasının psixoloji problemləri, Bakı: Elm və təhsil, 2010, səh. 44

görürdü.[1]

Aqillər demişlər ki, düzlük həmişə əyrini kəsmişdir. "Doğruluq yaxşıdır, uymayın yada, bircə düzlükdədir nicat dünyada" poetk misralarının müəllifi dahi Azərbaycan şairi Nizami Gəncəvi doğruçuluq və düzlüyün mahiyyət və məzmun dəyərini aşağıdakı misraları ilə çox gözəl vurğulayır:

Sönükdür hər zaman yalan xəyallar,
Yalnız həqiqətdə ölməz qüvvə var.[2]

Düzlük, doğruçuluq hər bir adamın nicat yoludur. Aqillərimiz demişlər: "Düz danışanı utandırmaq olmaz", "Düz yaşa – yüz yaşa", "Düz söz – bir söz". Əvhədi Marağalı doğruçuluq və düzlüyün mahiyyət və məzmun dəyərini aşağıdakı poetik misraları ilə çox gözəl vurğulayır:

Düzlük et ki, düzlər nicat taparlar,
Hamıdan güclüdür düzlər. aşikar.
Yaxşı ad qazanar düz iş görənlər,
Bişməmiş, çiy olar əyri görənlər. [1]

III fəslin üçüncü yarımfəsli **"Qadın dünyası nümunələrinə münasibət"** adlanır. Bu yarımfəsildə qeyd olunur ki, bəşəriyyətin yaradıcısı olan qadının ailə rahatlığının, firavanlığının təminində rolu xeyli böyükdür. Həyalı, isмətli qadın ailə başçısına arxadır, dayaqdır. Ailədə qadınla kişinin sağlam düşüncəyə, sağlam məhəbbətə əsasən fikir və duyğularının biri-birini tamamlaması, xoş, ülvi rəftarları burada dünyaya göz açmış övladlarının da xoşbəxt, firavan həyat sürmələrinə, yaxşı tərbiyə olunmalarına öz müsbət təsirini göstərir. Xoşbəxt ailədə dünyaya gələn uşaqlar ana ilə daha çox təmasda, mənəvi ünsiyyətdə olduğundan onların tərbiyəsində, həyata hazırlanmasında, gərəkli insan kimi formalaşmasında ananın xidməti, qayğısı xeyli böyükdür. Ailədə qadının ailənin başçısı sayılan ərinə, övladlarına qayğıkeşliyi, məhəbbətliliyi, ailə təsərrüfatından məsrəfli istifadə etməsi, sədaqətliliyi, xoş rəftarlılığı, şirindilliliyi ömür-gün yoldaşında (candostunda) ona olan sevgi və məhəbbət hissini qat-qat yüksəldir, ailənin uzunömürlü olmasına, uşaqların xatırladılan müsbət nümunələr əsasında tərbiyə olunmalarına real zəmin yaradır. Belə olduqda ailə üzvlərindən xoş ovqat əksik olmur.

---

[1] Nicat Ə. Dünya filosofları. Bakı: Sabah, 1995, səh. 25

[2] Babaların hikmət və nəsihətləri (tərtib və lüğət M.Sultanovundur). Bakı: Gənclik, 1980, səh. 9

[1] Əvhədi Marağalı. Cami-Cəm. Bakı: Azərnəşr, 1984, səh.123-124

Bütün tərbiyə komponentləri baxımından ananın şəxsi nümunəsi əvəzsiz təsir qüvvəsinə malikdir. Nadanlıqdan uzaq olan ağıllı qadınlar heç vaxt bəzək-düzəyə, süni gözəlliyə deyil, dünyaya bəxş etdikləri övladlarının – ciyərparalarının tərbiyəsinə diqqət və qayğı göstərməyi hər bir iş və fəaliyyətindən üstün sayarlar. Həqiqi cənnəti ayaqları altında təcəssüm etdirən analar pedaqoji sınaqlardan müvəffəqiyyətlə çıxmış bir həqiqəti dərk edərək bilməlidirlər ki, onların heç bir əməli, fəaliyyəti təsirsiz qalmır, onun bütün mənəvi dünyasını əks etdirən əqli-mənəvi keyfiyyətlər təqlidə, görüb-götürməyə meyilli övladlarında öz real əks-sədasını tapır. Ağıllı, nadanlıqdan uzaq qadın övladlarının tərbiyəsində tərbiyənin bütün komponentləri ilə yanaşı, ailə başçısı ilə birlikdə tərbiyədə vahidlik prinsipinə əməl etməlidir. Xalqımıza, Vətənimizə gərəkli, insaniyyətliliyi özündə əks etdirən övladlar böyüdüb boya-başa çatdırılmasında ata ilə müştərək şəkildə ana da ağıllı, düşünülmüş, təfəkkür süzgəcindən keçirilmiş səviyyədə fəaliyyət göstərməlidir. Ana bir həqiqəti dərk edərək bilməlidir ki, bəzək-düzəkdən, süni gözəllikdən qiymətli övladlarına verdiyi müsbət səciyyəli tərbiyədir. Qadın bilməlidir ki, onun övladına qoyduğu ən qiymətli miras düzgün, məqsədyönlü tərbiyədir. Fikrimizi M.Ə.Sabirin poetik şəkildə qələmə aldığı aşağıdakı misralar bir daha təsdiqləyir. Şair yazır:

Bəzək, bəzək ki, deyirlər, cavahirat deyil,
Cavahirat bu gün ziynəti-həyat deyil.
...Həqiqi valideynin ən şərəfli bir bəzəyi –
Əbədi uslu cocuqdur, təcəmmülat deyil.[1]

Ailə başçısının gəliri ilə razılaşan, ondan məsrəflə istifadə etməyi bacaran, ərə qulluqda, xidmətdə müsbət şəxsi nümunələr səciyyəsində fərqlənən, onun şərəf və ləyaqətini, şan-şöhrətini daim ucaltmağa can atan, sadə, aztamah qadınların xislət nümunələrini Şərq ədəbiyyatının görkəmli korefeylərindən biri olan Sədi şirazi aşağıdakı poetik misraları ilə çox gözəl tamamlayır:

Qulluğunda dursa arvadı əgər,
Öz yoxsul ərini padşah eylər.
Yanında olarsa vəfalı yarın,
Elə bil başından aşıbdı varın.[2]

III fəslin dördüncü yarımfəsli **“Uşaqların estetik tərbiyəsində valideyn nümunəsinin rolu”** adlanır. Əlbəttə, uşaqlar bütün münasibətlərdə olduğu kimi, estetik zövq baxımından da ilk növbədə ata və ananın şəxsi

[1] Beqdeli Q., Sasani Ç. Müdrük sözlər. Bakı: Yazıçı, 1979, səh. 95
[2] Sədi Şirazi. Bustan. Bakı: Ozan, 2004, səh.100

nümunələrindən bəhrələnirlər. Estetik tərbiyə ana laylasından başlayaraq ömür boyu davam edir. Otaqların bəzənilməsi, oyuncaqlar, musiqi, nəğmə, bədii oxu, rəsm və gəzintilər uşaqların estetik tərbiyəsinə xidmət edir. Bu cəhətdən ata və ananın evdə, bayırda geyim forması, yaradıcılıq işləri, səliqə-sahmanı, davranış etikası, məişət fəaliyyəti, təbiət mənzərələrindən zövq almaq mədəniyyəti estetik tərbiyənin tələblərinə uyğun olmalıdır. “Estetik tərbiyə insana gözəlliyi, ülviliyi duymaq, qiymətləndirmək bacarığı aşılayır və onu böyük mənəvi sərvətlərin yaradıcısı kimi formalaşmağa yönəldir.”[3] Gözəllik baş tacıdır, onu duymaq, ona sahib olmaq şəxsiyyətin kamilləşməsində yüksək təsir dəyərinə malikdir. Valideynlər bilməlidirlər ki, “musiqi, rəsm, ana dili və ədəbiyyat dərsləri, özfəaliyyət dərnəkləri, səhərciklər, teatr, kino və muzeylərə gediş, həmçinin məktəbdənkənar uşaq müəssisələrinin keçirdikləri tədbirlər uşaqların estetik tərbiyəsində böyük rol oynayır.”[1]

Şəxsiyyət bütövlüyünün təminində özünəməxsus yeri olan estetik tərbiyənin düzgün, məqsədyönlü formalaşdırılmasında ailə mühitinin təsir gücü xeyli böyükdür. Valideynlər bilməlidirlər ki, “estetik tərbiyə məişətimizin hər bir sahəsinə daxil olmalıdır. Şagirdlərin zövqünü tərbiyə edib təşəkkül etdirməkdə onun əhatə olunduğu şərait böyük rol oynayır. Şagirdi əhatə edən şərait, xüsusən ailə mühiti təmiz və səliqəli olmalıdır.”[2]

Uşaqların estetik tərbiyəsində musiqinin rolu, dəyəri xeyli böyükdür. Ata, ana hər hansı musiqi alətində çalmağı bacarırsa, yaxşı xalq mahnılarını ifadə etməyi bacarırsa, o uşaqlarda estetik zövq tərbiyə etmiş olur. “Uşaq böyüdükcə musiqidəki ahəngi, gözəlliyi başa düşür. Ananın dilindən eşitdiyi ilk laylalar, mahnılar uşağın qəlbindən heç vaxt silinmir, bütün həyatı boyu onda musiqiyə və mahnıya məhəbbət və zövq yaradır.” [3]

Şəxsiyyət bütövlüyünün təminində estetik tərbiyənin xüsusi yeri vardır. Bunsuz şəxsiyyət öz bütövlüyünü itirmiş olar. Estetikaya görə, əsil incəsənət gözəlliklərin mahiyyətinə müdaxilə edir, onları ümumiləşdirilmiş və obrazlı şəkildə əks etdirir, adamda bədii hissin, zövqün və marağın tərbiyəsinə səbəb olur, idrakı estetik mühakiməni müəyyənləşdirir. Ata, ana bil-

---

[3] Allahverdiyeva G. Şagirdlərin estetik tərbiyəsində xarici dil dərslərinin imkanları // “Azərbaycan məktəbi” jurnalı, Bakı: 1990, № 1, səh. 24

[1] ASE, IV cild, Bakı: Azərnəşr, 1980, səh. 98

[2] Sadiqov F. Bədii yaradıcılıq dərnəkləri. Bakı: “Təbib” nəşriyyatı, 1996, səh . 22

[3] Ağayev S. Məktəbəqədər yaşlı uşaqların hərbi-vətənpərvərlik tərbiyəsində musiqinin rolu haqqında // Pedaqoji Universitetin Xəbərləri, Bakı: 2000, № 1-2, səh. 40

məlidir ki, onların heç bir fəaliyyəti, heç bir əməli təsirsiz qalmır. Bu cəhətdən valideynlər – baba, nənə, ata, ana şəxsiyyət bütövlüyünün təminində özünəməxsus yeri olan estetik tərbiyə baxımından da kövrək qəlbli balacalara həm görünən, həm müşahidə olunan və həm də duylan ideal nümunə olmalıdırlar. Klassik pedoqoqların söylədiyi kimi, balaca yaşlı uşaqlar dərk etməyə başlamazdan əvvəl təqlid etməyi öyrənirlər. Uşaqlarda təqlidçilik meyilinin yüksək olmasını validəynlər təbii hal kimi  nəzərə alaraq bütün tərbiyə komponentləri, bütün tərbiyə çalarları baxımından  övladlarına ideal nümunə olmalıdırlar. Odur ki, kiçik yaş dövrlərindən başlayaraq uşaqlar həyat hadisələrini, əxlaqi-mənəvi dəyərləri, davranış qaydalarını ətraflarında olan yaşlıların şəxsi nümunələrindən əxz edib öz "mallarına"çevirməyə cəhd göstərirlər. Buna görə də hər bir ata, hər bir ana estetik, bədii zövq, əxlaqi təmizlik baxımından ideal şəxsiyyət nümunəsi olmalıdır. Valideynlər yaxşı bilməlidirlər ki, "uşaqlar ailənin güzgüsüdür; günəş bir damla suda əks olunduğu kimi, ata və ananın əxlaqi saflığı da uşaqlarda əks olunur."[1]

III fəslin beşinci yarımfəsli **"Ekoloji tərbiyədə valideyn nümunəsi"** adlanır. Qeyd olunur ki, ekologiya  yunan sözüdür: eko (oikos) – məskən, yurd, loqos – təlim, söz (məskan haqqında təlim, yurd haqqında söz) deməkdir.[2] Yurdu, məskəni yaxşı saxlamaq, onu qorumaq, bitki və heyvanat aləminə qayğı göstərmək, qayğı ilə yanaşmaq, ondan məsrəflə, düşünülmüş şəkildə istifadə etmək hər bir ailə və cəmiyyət üzvünün insanlıq və vətəndaşlıq borcudur. "XX əsrin son onilliklərində texnikanın, sənayenin sürətlə inkişafı dövründə, kimyanın həyatımızın, məişətimizin bütün sahələrinə ayaq açdığı vaxtda dünyanın ekoloji tarazlığı pozulur, bütün canlı aləmin məhv olması təhlükəsi yaranır. Buna görə də öz sağlamlığımızı qorumaq, dünyanı məhv olmaq təhlükəsindən qurtarmaq üçün ekoloji tərbiyəyə diqqəti artırmaq lazımdır."[3] Bu baxımdan müasir dövrümüzdə ekoloji tərbiyə işi ilə sitemli şəkildə məşğul olmaq ailənin də, məktəbin də təxirəsalınmaz vəzifəsidir. Bu şərəfli vətəndaşlıq, insanlıq borcundan özünü kənarlaşdırmağa heç kimin mənəvi haqqı yoxdur.  Ekoloji problemləri aradan qaldırmaq dünya əhəmiyyətli məsələdir. "Ekoloji problemlər bəşəriyyəti XX əsrin ikinci yarısından ciddi narahat etməyə başlamış, "ekoloji tərbiyə" anlayışı isə tərbiyənin sahələrindən biri kimi son 20-30 ildə tərbiyə komponentlərinə daxil edilmişdir. Dahi Nizami Gəncəvi müasir dövrün ekoloq-

[1] Suxomlinski V.A. Ürəyimi uşaqlara verirəm. Bakı: Maarif, 1979, səh. 29
[2] Kazımov N.M., Həşimov Ə.Ş. Pedoqogika. Bakı: Maarif, 1996, səh. 346
[3] Abdullayev H. Məsumov N. Ekoloji tərbiyə üzrə işin sistemi // "Azərbaycan məktəbi" jurnalı. Bakı: 1990, № 11-12, səh. 34

larını və ekoloji tərbiyənin zəruriliyini sübut etməyə çalışan pedoqoqları düz səkkiz əsr yarım qabaqlamışdır.”[4]

Hamının doğma evi olan planetimizdə havanın, suyun çirkləndiyi, bir sıra ağacların, quşların, heyvanların adlarının qırmızı kitaba düşdüyü, hər cür kütləvi qırğın silahlarının mövcud olduğu müasir dövrdə bütün tərbiyə komponentləri ilə yanaşı ekoloji tərbiyə işi də nəinki respublika əhəmiyyətli, hətta dünya əhəmiyyətli bir problemdir. Ekoloji tərbiyə problemini Bəxtiyar Vahabzadə poetik şəkildə aşağıdakı misraları ilə çöx gözəl ifadə etmişdir:

Yaranışdan biz övladıq, o-ana
Bu sitəmi necə qıydıq biz ona?
Hara gedir o fırlana-fırlana,
Sinəsində çalın-çarpaz yarası?

Bütün valideynlər təbiətin bitki və heyvanat aləmini qorumaqda, təbiət gözəlliklərini artırmaqda övladlarına ideal şəxsi nümunə olmalıdırlar. Valideynlər kiçik yaşlı uşaqlara bədii ədəbiyyatda öz əksini tapmış ekoloji tərbiyə ilə bağlı məsələləri çatdırmaqla onları maarifləndirməlidirlər. Onlara təlqin olunmalıdır ki, təbiətdəki bütün canlıların həyat üçün özünəməxsus dəyəri, faydası, xeyiri xeyli böyükdür. Təbiətə məhəbbət hissi aşılamaqda dahi Nizaminin aşağıdakı poetik misraları daha çox səciyyəvidir:

Bu dünyanın hikməti çatmaz sona əzəldən,
Hər canlının şirindir canı ona əzəldən.
Üstünlükdə varlığın birincidir dünyada.
Hər canlı da sənintək bir incidir dünyada,
Qan bahası istəyən çoxdur,- deyə can alma,
Can verməyə qüdrətin yoxdur,- deyə can alma. [1]

Təbiəti qorumaq hər bir valideynin müqəddəs borcudur. Bu borc hissini övladlara aşılamaq üçün Nizami yaradıcılığı daha çox münbitlik təşkil edir. Nizami Gəncəvi təbiəti sevdiyindən, onun qoruyucusu olduğundan, xalqı bu baxımdan maarifləndirmək üçün aşağıdakı poetik misraları qələmə almışdır:

Vuracağı ovçuya vuruldu özü şahın,
Ürkək gözü, sarğısı qıyma deyir ovçuya,
Şuxluğu qansızlığa uyma deyir ovçuya.

---

[4] Apoyev B. Nizaminin təbiəti mühafizə konsepsiyası // “Təhsil, Mədəniyyət, İncəsənət” jurnalı. Bakı: 2004, № 4, səh. 25

[1] Nizami Gəncəvi. Sirlər xəzinəsi. Bakı: Yazıçı, 1981, səh. 97

Duyuq düşdü qəsdindən ona tor quran kəsin,
Nəzərindən yayındı qəsdinə duran kəsin.[2]

Dissertasiyanın "**Şagirdləri düşündürərək öyrətmək, nümunələrlə tərbiyələndirmək təcrübəsindən**" adlanan IV fəsli üç yarımfəsildən ibarətdir. **"4.1. Düşündürərək öyrətmək təcrübəsindən"** yarımfəslində təsdiqlənir ki, kiçikyaşlı məktəblilərdə birinci və ikinci siqnal sistemi arasında müvazinət (tarazlıq) yarandıqdan sonra onlar düşünərək əqli mühakimələr yürütməyə başlayırlar. Onlar axtarıcı fəaliyyətə cəlb edildikdə düşünərək öyrənməyə, düşünərək tərbiyələnməyə, düşünərək təkmilləşməyə və habelə psixoloji inkişafa geniş imkan və şərait qazanmış olurlar. Doğma Azərbaycanımızın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərində yaranmış mövcud imkanlardan bacarıqla, metodik ustalıqla istifadə etməklə şagirdləri düşündürərək, anladaraq öyrətməyə, tərbiyə etməyə, onların psixoloji inkişaflarına nail olmağa xüsusi səy və təlaş göstərən müəllimlərimiz çoxdur. Onlardan biri də "O, duyaraq oxumağı, öyrənməyi öyrədir" başlığı altında qabaqcıl iş təcrübəsi yayılmış Naxçıvan şəhər İslam Səfərli adına 1 saylı orta məktəbin sinif müəllimi Ruhəngiz Nəsibovadır. Ruhəngiz müəllimə təlim-tərbiyə prosesində şagirdlərinin düşünərəkdən, duyaraqdan oxumalarına, düşünərəkdən, duyaraqdan öyrənmələrinə yüksək diqqət və qayğı göstərir. Onun pedoqoji fəaliyyətində mexaniki oxutmaq, oxuduğunu başa düşmədən əzbərlətmək, bilikləri hazır şəkildə şagirdlərə vermək halları yoxdur. O, bütün tərbiyə komponetləri baxımından həm təlim-tərbiyəsi ilə məşğul olduğu şagirdlərə və habelə həmkar yoldaşlarına bütün əməli fəaliyyəti ilə ideal nümunədir. Onun düşündürərək öyrətmək, tərbiyələndirmək, psixoloji inkişafa nail olmaq sahəsində ideal müsbət nümunələri həm şagirdləri tərəfindən, həm də həmkar yoldaşları tərəfindən müşahidə olunmmuş, görünmüş və habelə duyulmuşdur.

Ruhəngiz müəllimə şagirdləri düşündürərək, əqli mühakimələrə cəlb edərək öyrətmək, onlarda ideya-mənəvi keyfiyyətləri möhkəmləndirmək, şagirdlərdə ictimai-faydalı əməyə məhəbbət, rəğbət hissini aşılamaq üçün şagirdləri heyrətləndirərək onlarda öyrənməyə maraq motivləri və tələbatları yaradır. O, pedoqoji təcrübəsindən yəqin etmişdir ki, düşünərək öyrənmə, tərbiyələnmə, psixoloji inkişafa nail olma heyrətdən başlayır. Şagirdlərdə heyrətləndirmə sayəsində yaradılan maraq motivləri və idrak tələbatları onları düşünərək öyrənməyə, axtarıcı, yaradıcı şəkildə fəaliyyət göstərməyə səfərbər edir. Bunun üçün müəllim təlim-

[2] Yenə orada, səh. 99

tərbiyə prosesində emosinallığa nail olmaq, heyrətləndirmək zəminində şagirdlərə bilik, bacarıq, vərdişlər aşılamağa marağı, səyi artırmaq üçün hər bir dərsinə müasir tələblər səviyyəsində ciddi hazırlaşır. Dərsdə proqramda nəzərdə tutulmuş bilik, bacarıq və vərdişləri şagirdlərə axtarıcılıq həvəsi oyatmaqla aşılayan müəllim hər bir mövzunun tərbiyəvi imkanlarından da bacarıqla, yüksək metodik ustalıqla istifadə edir.

O, ikinci sinifdə M.Rahimin "Azərbaycan”, T.Elçinin “Gözəl Vətən”, A.Talışoğlunun “Bizim ellər” və başqa şeir və hekayələri tədris edərkən şagirdləri hər bir mövzunun mahiyyət və məzmun dəyərini açıqlamağa imkan verən heyrətləndirici suallar əsasında düşündürür. Onları əqli mühakimələr yürütməyə cəlb edir. Onlarda insan həyatının bəzəyi, zinəti sayılan vətənpərvərlik hissini qüvvətləndirir. Onların bu ali duyğu ilə bağlı anlamlarını artırmağa xüsusi səy və təlaş göstərir. Sözün məna dəyərindən məharətlə istifadə edərək Vətənimizin əsrarəngiz gözəlliklərinin mənzərəsini, xalqımızın Vətənə bağlılıq duyğularını, möhtərəm, mərhum prezidentimiz Heydər Əliyevin yürütdüyü xarici və daxili siyasət məsələlərini, hər bir işdə ədalətli mövqe tutduğunu şagirdlərin nəzər və diqqətində emosionalcasına canlandırır.

Ruhəngiz müəllimə oxu dərslərində şeir, hekayə, nağıl və başqa mətnlərin şüurlu mənimsədilməsinə nail olmaq üçün düşündürərək, ifadəli qiraətin tələblərini nümunəvi şəkildə gözləmək zəminində oxudan bacarıqla, metodik ustalıqla istifadə edir. O, oxu zamanı şagirdələri düşündürərək, əqli nəticələrə cəlb edərək, mətndə olan personajların daxili aləmini açmağa çalışır. Müəllim şagirdlərin intonasiya, jestlər və mimikalarından düzgün istifadə edərək obrazın daxili aləmini açmaq üçün onların hiss və fantaziyalarını emosionalcasına hərəkətə gətirir, sözlə personajların portretlərini yaratmaq üçün ifadə vasitələrindən bacarıqla, metodik ustalıqla nümunəvi şəkildə istifadə edir. Düşündürmə, əqli mühakimə yürütmə əsasında hər bir şagirdin mətndə irəli sürülən əsas ideyanı duyaraqdan, dərk edərəkdən oxumasına nail olur. Ruhəngiz müəllimə uzunmüddətli təcrübəsindən yaxşı bilir ki, məzmunu, ideyanı şüurlu şəkildə başa düşmədən, anlamadan ifadəli oxumaq mümkün deyildir. Bilir ki, ifadəli oxu anlaşıqlıqla daha çox şərtləşir. Anlaşıqlılıq ifadəli oxunun görünən, müşahidə olunan, duyulan nümunəviliyini sahmanlayaraqdan gücləndirir. Müəllimə şüurluluq əsasında ifadəliliyə nail olmaq üçün öz şərhində və şagirdlərlə müştərək fəaliyyətində öyrədilən mövzunun hamı üçün anlaşıqlı olmasına çalışır və buna məharətlə nail olur. Hər bir dərsdə ifadəli qiraətin tələblərinə nail olmaq, anlaşılmazlıqları aradan qaldırmaq üçün ətraflı şəkildə lüğət işi aparır. O, axtarıb tapmaq,

düşünərək, cəfakeşlik göstərərək öyrənmək üçün uşaqları səmərəli yollara istiqamətləndirir. Bacarıqlı müəllimə sözdən, səs tonundan, intonasiyadan düzgün istifadə etməklə hər bir dərsdə mövzunu şüurlu şəkildə öyrətməyə xüsusi səy və təlaş göstərir. Müəllimə şagirdlərin mövzu ilə bağlı öz ifadələrində sevinc, şadlıq, fərəh, qəm, qüssə, kədər, qəzəb, nifrət, qorxu, həyəcan və s. emosional hisslərdən düzgün, nizamlı istifadə etmələrinə nail olur. Ayrı-ayrı söz çalarlarını, emosional keyfiyyətləri daha əsaslı şəkildə şagirdlərə başa salmaq, onlarda düzgün anlam yaratmaq üçün hər bir dərsdə lüğət işi aparır və onları rəngarəng, uşaq ruhuna, uşaq anlamına yaxın çalışmalar üzərində işlədir. Bütün bunlar şagirdlərə oxu prosesində şüurlu və ifadəli qiraətin tələblərini gözləməkdə kömək və yardım göstərmiş olur.

Ruhəngiz müəllimə mətnin düşünərkən mənimsədilməsinə nail olmaq üçün oxunun rəngarəng növlərindən istifadə edir. Üçüncü sinifdə İ.A.Krılovun “Qurd və quzu” şeirini tədris edərkən əvvəlcə onu tanışlıq üçün oxuyur. Anlaşılması çətin olan sözlər (naçar, düçar, məlul, sərçeşmə, yasar) üzərində lüğət işi aparır. Şagirdləri düşündürərək, təfəkkür fəaliyyətinə cəlb edərək həmin sözlərin sinonimlərini onların özlərinə tapdırır. Mətn daxilindəki çətin sözlərin məzmununu daha əhatəli şəkildə düşündürərək mənimsətmək üçün həmin sözlərin şagirdlərin cümlələrdə işlətmələrinə nail olur. Şeirin ideyası, məzmunu haqqında şagirdlərə dolğun məlumatlar verdikdən sonra, onu ifadəli şəkildə oxuyur. İfadəli oxu prosesində qurdun sözlərini zalımlıq, qəddarlıq xüsusiyyətlərini əks etdirən tonda, quzunun sözlərini isə yazıqlıq, məzlumluq, qorxu hisslərini əks etdirən imdaddiləyici, yalvarıcı tonda oxuyur. Oxu zamanı səs tonunu ölçülü-biçili şəkildə alçaldıb ucaltmaqla bərabər, məna və məntiqi fasilələri gözləyir, yerli-yerində müxtəlif çalarlı mimika və jestlərlə şeirdə təsvir olunan personajların daxili aləmini emosionalcasına uşaq ruhuna, uşaq anlamına müvafiq şəkildə açmağa çalışır və buna məharətlə nail olur. Belə görünən, müşahidə olunan, duyulan oxu nümunəsindən istifadə şagirdləri heyrətləndirir və onların ifadəli qiraətin tələblərini gözləməklə ifadəli şəkildə oxumalarına nail olur. Şagirdlərin diqqətləri dərsə hakim kəsilir.

Müəllimə şagirdləri düşündürərək, axtarıcılığa səfərbər edərək şeirdəki həmqafiyə sözləri (naçar, düçar, məlul, məşğul, desin, yesin, korsan, saymırsan və s.) şagirdlərin özlərinə tapdırır. Şeirin anlaşıqlılığını artırmaq üçün mətnin məzmunu şagirdlərə öz sözləri ilə danışdırır. Sonra ifadəli oxu sahəsində xüsusi səriştəsi olan şagirdlərin oxusunu təşkil edir. Daha sonra verilən nümunələr əsasında qalan şagirdlərin şeiri ifadəli, təbiilikdən uzaqlaşmadan oxumalarına nail olur. Məzmun və ideya

anlaşıqlığını daha da artırmaq üçün “Böhtana düşən odsuz yanar”, “Qurd tükünü dəyişər, xasiyyətini yox” kimi xalq hikmətlərini şagirdlərə xatırladır. Bu da şeirdə irəli sürülən fikirlərlə bağlı şagirdlərdə fikir, məzmun aydınlığını qat-qat yüksəltmiş olur..

Oxu zamanı yeknəsəkliyi aradan qaldırmaq, fikirləşərək, düşünərək öyrənmək səriştəliliyini daha da yüksəltmək üçün şeiri rollar üzrə oxutdurur. Rollar üzrə oxu sinifdə düşüncəliliyi, emosionallığı, fəallığı qat-qat artırır. Mənimsəmənin düşünərəkliliyini, şüurluluğunu artırmaq məqsədilə şagirdlərə aşağıdakı suallarla müraciət edir:

-Quzu nə vaxt və harada qurda rast gəldi?; Qurd quzuya nə dedi?; O niyə acıqlandı?; Quzu qəzəbli qurda nə cavab verdi?; Onların hansı haqlı idi?; Bəhanə gətirməkdə qurdun məqsədi nə idi? və s. Sualların belə qoyuluşu şagirdləri düşündürür, cavabların “hə”, “yox” sözləri ilə deyil, daha dolğun, məzmunlu, düzgün, düşünülərək verilməsinə onları təhrik edir.

Düşündürücü şəkildə qoyulmuş suallar əsasında şagirdlərdən tam və dolğun cavablar aldıqdan sonra o, biliklərinin qiymətləndirilməsi nəzərdə tutulmuş şagirdlərin qiymətlərini elan edir. Qiymətləndirmə prosesində ədalətliliyə riayət edir. Biliyi qiymətləndirilən şagirdlərin nə üçün “5”, nə üçün “4”, nə üçün “3” qiymət aldıqlarını anlamlı, düşündürücü şəkildə başa salır. Bilikləri qiymətləndirilən hər bir şagirddə biliyinin ədalətli qiymətləndirildiyinə inam yaradır. Şeirin bir daha düşünülərək, məzmun aydınlığı əldə etmək zəminində əzbər öyrənilməsinin yolları barədə lazımi tövsiyyələr verir. Şagirdlərin əqli yorğunluğunu aradan qaldırmaq, onları növbəti dərsə dinc, nikbin əhvali-ruhiyyə ilə hazırlamaq üçün Fikrət Əmirovun Zeynal Cabbarzadənin sözlərinə bəstələdiyi “Quzum” mahnısını xorla oxutdurub, dərsi sona çatdırır və yekunlaşdırmış olur.

IV fəslin II yarımfəsli **“Tərbiyəçi nümunəsi”** adını daşıyır**.** Göstərilir ki, Naxçıvan şəhər 37 nömrəli körpələr evi-uşaq bağçasının tərbiyəçisi Ləman Hüseynova məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsinə daha böyük qayğı ilə yanaşır. O, yaxşı bilir ki, əmək bütün maddi, mənəvi nemətlərin yaradıcısı və habelə ən böyük tərbiyəçidir. Qabaqcıl təcrübəyə və öz mülahizələrinə əsasən yəqin etmişdir ki, məktəbəqədər dövrdə ayrı-ayrı yaş qruplarına aid əmək proqramlarının tələblərinə müvafiq olaraq aşılanan əmək vərdişləri onların bağça və məktəb təlimi dövründə köməyinə çatacaq, əqli, fiziki cəhətdən kamilləşməsinə, kiçik yaşlarından həyata daha əsaslı şəkildə hazırlanmalarına kömək və yardım göstərəcəkdir. Sağlam düşüncə, əqli, fiziki əmək də insani fəaliyyətdir. Sağlam

düşüncənin də, əqli, fiziki əməyin də insaniləşməkdə, kamilləşməkdə rolu, dəyəri xeyli böyükdür.

Ləman Hüseynova əməyin insanın əqli, fiziki kamilləşməsinə təsirini yüksək dəyərləndirir. O bilir ki, əmək insan həyatının bütün çalarlarında ən böyük tərbiyəçi rolunu oynayır. Əmək insanı kamilləşdirir. Məhz bu baxımdan da o, məşğələlərarası əlaqədən ustalıqla istifadə edərək uşaqlara kompleks tərbiyəvi təsir göstərməyə diqqət və qayğını gündən-günə artırır. Məşğələdə mövzunun imkanlarından bacarıqla, metodik ustalıqla istifadə edərək uşaqların əqli, mənəvi dünyalarını cilalayır, gözəl. heyrətamiz naxışlar vurur və onlara daha çox əmək tərbiyəsi baxımından həyatda gərəkli və faydalı olan bilik, bacarıq və vərdişlər aşılayır.

Yüksək fəallıq şəraitində keçdiyi məşğələlərdə uşaqlarda əmək vərdişləri formalaşdırmaqla yanaşı, onların nitqini inkişaf etdirir, təxəyyül və təfəkkür fəaliyyətlərinin orbitini genişləndirir, əməyə məhəbbət, əmək adamlarına hörmət və rəğbət hissini artırır, habelə mövzu ilə bağlı lazımı məlumatları uşaq istəyinə, uşaq anlamına, arzusuna, istəyinə müvafiq şəkildə öyrədir. İşgüzar və bacarıqlı tərbiyəçi Ləman Hüseynovanın qabaqcıl iş üsulu ilə tanış olmaq üçün 6 yaşlı uşaqlardan komplektləşdirilmiş məktəbə hazırlıq qrupunda “Süfrə salatının hazırlanması” mövzusunda keçdiyi məşğələyə nəzər salmaq kifayətdir.

Xatırlatmaq lazımdır ki, tərbiyəçi məşğələ üçün əvvəlcədən ciddi hazırlıq işləri apararaq salatın hazırlanması üçün lazım olan tərəvəz və başqa yeyinti məhsullarını hər uşaq  üçün ayrı-ayrılıqda qarşılarındakı iş stollarında cəmləşdirmişdi. Uşaqların geyim formaları estetik zövq baxımından göz oxşamaqla bərabər, məşğələ üçün əlverişli və müvafiq idi. Belə ki, hər bir uşaq başına ağ kalpaq qoymuş, belinə ağ önlük bağlamışdı. İlk baxışdan gigiyenik cəhətdən təmiz və səliqəli geyinmiş hər bir oğlan və qız sanki, öz peşəsinin sirlərinə dərindən bələd olan bir aşbazı xatırladırdı. Əvvəlcədən aparılmış geniş hazırlıq işləri, uşaqların geyim formalarının məqsədə müvafiqliyi məşğələdə canlanmaya səbəb olmaqla yanaşı, onların xidmət əməyindən daha artıq fəallıq göstərmələrinə kömək etmişdi.

Tərbiyəçi uşaqlara xiyar, pomidor salatları haqqında söhbət açdı. Xatırlatdığı salatların hazırlanma texnologiyasını onların yadına saldı. Sonra uşaqların diqqətini bugünkü məşğələdə görüləcək işlərə yönəldərək giriş söhbətində süfrə salatını hazırlamaq üçün qarşılarındakı iş stoluna cəmləşdirmiş turp, keşniş, şüyüd, soğan, göy noxud, kolbasa, suda bişirilmiş yumurta, xama, nar dənələri, duz və s. haqqında məlumat verdi. Həmin məhsulları öz nümayişi əsasında qarşılarında cəmləşdirilmiş məhsullar toplusundan ayırıb, kartlarda şagirdlərin tapmalarını təklif etdi.

Uşaqlar tərəvəz və yeyinti məhsullarının şəkillərini göstərdilər. Bu təmrinlər daha çox duyğu üzvünün fəaliyyətə qoşulmasına səbəb oldu. Evrestik müsahibə prosesində uşaqlar salatın hazırlanması üçün lazım olan yarımfabrikat yeyinti və tərəvəz məhsulları haqqıda əhatəli şəkildə anlayışlara, lazımi məlumatlara yiyələndilər. Məşğələyə, praktik fəaliyyətə hazırlıq mərhələsində uşaqların nitqi inkişaf etdirildi, onlarda əməyə məhəbbət, əmək adamlarına hörmət və rəğbət kimi nəcib duyğular qat-qat artırıldı.

İşgüzar, bacarıqlı tərbiyəçi Ləman müəllimə giriş söhbətini tamamlayaraq dadlı süfrə salatının hazırlanma ardıcıllığı və texnalogiyası haqqında uşaqları lazımi anlayışlarla, məlumatlarla silahlandırdı. Uşaqlara işin icra prosesində təhlükəsizliklərini təmin etmək baxımından lazımi tövsiyyələr verdi. Sonra bıçağı sağ əldə və salat üçün ayrı-ayrılıqda doğranıb salat qabına tökülməsi nəzərdə tutulmuş yarımfabrikat məhsulları (suda bişirilərək soyulmuş kartof, səliqə ilə yuyulub təmizlənmiş turp, keşniş, şüyüd, soğan, kolbasa, suda bişirilib qabığı təmizlənmiş yumurta, duz, nar dənələri, istiot) sol əl ilə tutaraq taxta altlıq üzərində səliqəli doğramaq haqqında görünən, müşahidə olunan, duyulan səciyyəli əyani göstərişlər verdi. Tərbiyəçi işin icrasını göstərə-göstərə həm özü, həm də uşaqlar yarımfabrikat şəkildə olan kartof, yumurta, turp, kolbasa, xiyar, keşniş, soğan və şüyüdü ayrı-ayrılıqda doğrayıb, hərə öz qarşısında olan salat qabına tökür və qaşıqla qarışdırırlar. Daha sonra salat üçün gərəkli xama haqqında qısa izahat verdikdən sonra uşaqların qarşısında olan balaca stəkandakı xamanı salat qabındakı qarışığa əlavə etdirib təkrarən qarışdırmalarına nail olur. Uşaqlar hər bir əməliyyatı layiqincə yerinə yetirdikcə, əməyin sevincinə və fərəhinə nail olaraq haqlı qürur hissi keçirirdilər.

Tərbiyəçinin göstərişi əsasında uşaqlar hazırladıqları salata öz arzularına müvafiq duz və istot əlavə edib təkrarən qarışdırırlar. Uşaqlar ondan çox əməliyyatı yerinə yetirib həvəslə hazırladıqları süfrə salatının üzərinə nar dənələri və doğranmış göyərtilərlə bəzəklər (ulduz, günəş, müxtəlif naxışlar) vurduqdan sonra elan edildi ki, öz halal zəhmətləri ilə hazırladıqları salatdan nahar yeməyində istifadə edəcəklər.

Bacarıqlı tərbiyəçi uşaqlarda yorğunluğu aradan qaldırmaq, onlardakı şən əhval-ruhiyyəni daha da artırmaq məqsədi ilə idman dəqiqələri keçirdi. Müəllimə müxtəlif idman hərəkətlərini başa çatdırdıqdan sonra uşaqların salat hazırlamasında istifadə etdikləri tərəvəz məhsullarına aid maraqlı tapmaçalar söylədi. Söylənilən tapmaçalar uşaqları düşündürərək onların təfəkkür fəaliyyətinin güclənməsinə real zəmin

yaratdı. Tərbiyəçinin xiyara aid söylədiyi aşağıdakı tapmaça onlarda poetik duyğuların qanadlanmasına, inkişafına öz müsbət təsirini göstərdi:

Ləyəndə, ay ləyəndə
Güllər boynun əyəndə.
Yeyilər kal vaxtında,
Yemək olaz dəyəndə.

Tərbiyəçi xiyara aid tapmaçanın cavabının qoyulan sualların köməyi ilə tapılmasına nail olduqdan sonra soğana aid aşağıdakı tapmaçanı söylədi:

Əzizim qəssab ağlar,
Sarı don qəsab ağlar,
Ölən qoyun ağlamaz,
Öldürən qəsab ağlar.

Tərbiyəçi bu tapmacanı da xorla uşaqlara oxutdu. Uşaqların fikirləşmələri, düşünmələri üçün verilmiş fasilədən sonra onlardan soruşdu:

- Uşaqlar, biz salat hazırlayarkən nəyi doğrayarkən gözlərimiz yaşardı?(Soğanı).

Bu qayda ilə turpa, yumurtaya aid söylənən tapmacalar onlarda həm fiziki, həm də zehni yoğunluğu aradan qaldırdı. Məşğələdə emosionallığı, şən ovqatı artırmaqla bərabər, düşünüb tapmaq bacarığını yüksəltdi. Məşğələ belə yekunlaşdırıldı:

- Süfrə salatını hazırlamaq üçün biz əvvəlcə nəyi doöradıq? (-Bişirilmiş kartofu).
- Sonra nəyi doğradıq? (-Yumurtanı).
- Daha sonra nəyi doğradıq? (-Turpu).
- Daha nə etdik? (-Kolbasanı doğrayıb salat qabına əlavə etdik).

Tərbiyəçi məşğələnin axırında görülən işləri hesaba aldı. Ayrı-ayrı uşaqların məşğələdə nə kimi müvəffəqiyyətlər qazandıqlarını onlara izah etdi. Görülən işlərin nəticəsi ilə tanışlıq onlarda şən əhvali-ruhiyyəni, xoş ovqatı qat-qat artırdı. Sonra iş yerini qaydaya saldırmaq üçün stolların üstündə və ətrafında səliqə-səhman yaratdı. Ani vaxtda aparılan bu yır-yığış işləri uşaqlarda əmək mədəniyyətini qat-qat yüksəltdi.

Tərbiyəçi yorğunluğu aradan qaldıraraq, iş qabiliyyətini məşğələ başlamazdan əvvəlki səviyyəyə çatdırmaq üçün maqnitofonda səsləndirdiyi şən, oynaq müsiqi sədaları altında uşaqlara əvvəlcədən öyrətdiyi “Mən bir kiçik aşbazam” misraları ilə başlanan mahnını rəqs etdirə-etdirə oxutdurub məşğələni sona yetirdi.

Ləman müəlliməyə, – bu müvəffəqiyyətlərin qazanılmasında nəyi əsas amil hesab edirsən? – deyə müraciət etdikdə, o deyir:

- Məktəb islahatı haqqında qərarda bizim xoşbəxt bu günümüz və gələcəyimiz olan uşaqların əmək tərbiyəsinə və peşəyönümünə geniş yer verilmişdir. Uşaqların əmək tərbiyəsini məktəbəqədər dövrdən başlayaraq yaş və bilik səviyyələrinə müvafiq şəkildə qurmaq biz tərbiyəçilərin müqəddəs vəzifəsi və vətəndaşlıq borcudur.

IV fəslin üçüncü yarımfəsli **"Şagirdləri nümunələrlə öyrətmək və tərbiyələndirmək təcrübəsindən"** adlanır.

Muxtar Respublikamızda təlim - tərbiyənin və psixi inkişafın ahəngdarlığına nail olan, sağlam düşüncə tərzinə söykənərəkdən görünən, müşahidə olunan, duyulan şəxsi nümunələri ilə şagirdlərə təlim-tərbiyə prosesində təsir göstərməyi bacaran müəllim və tərbiyəçilərimiz çoxdur. Belələrinə nümunə olaraq Naxçıvan şəhərindən Məleykə Bağırova, Surə Musayeva, Zeynəb Əskərova, Tahirə Hüseynova, Zenfira Nuruyeva, Ordubad rayonundan Əvəz Nəsirov, Məsum Məsumov, Bayram Bayramov, Şərur rayonundan Xalidə Ağayeva, Arif Hüseynov, Sabir Nəcəfov, Babək rayonundan Qəzənfər Baxşəliyev, Bəsti Şəmilova, Zakir Bağırov, Şahbuz rayonundan Əli Qəhrəmanov, Sabir Hacıyev və onlarca başqalarının adını sevinc, fərəh və iftixar hissi ilə çəkmək olar ki, onların təlim-tərbiyə prosesində və həyatda öz şəxsi nümunəvi keyfiyyətləri ilə həmkar yoldaşlarına, təlim-tərbiyəsi ilə məşğul olduqları uşaqlara örnək olduqları mətbuat və bülleten səhifələrində şərh olunmuşdur.

Culfa şəhər orta məktəbinin sinif müəllimi Ceyran Əyyubova, Ordubad rayon Gənzə kənd orta məktəbinin sinif müəllimi Novruz Məmmədov bütün tərbiyə çalarlarında, bütün tərbiyə komponentlərində təlim-tərbiyəsi ilə məşğul olduqları şagirdlərə düşündürərək öyrətmək və əxlaqi-mənəvi dəyərlər baxımından ideal nümunədirlər. Onlar müxtəlif təlim-tərbiyə üsullarından metodik ustalıqla, emosionalcasına, heyrətləndirici şəkildə istifadə edərək şagirdlərə komples təsir göstərirlər. Onlar yaxşı bilirlər ki, şüurlu öyrətmədə fikirləşdirmənin, düşündürmənin, heyrətləndirmənin, uşaqla mənəvi yaxınlığın, mənəvi ünsiyyətin rolu, dəyəri xeyli böyükdür. Bu qabaqcıl sinif müəllimləri təlimin təhsilləndirmə, tərbiyələndirmə və habelə psixoloji inkişafa nailolma vəzifələrinin müvəffəqiyyətli həlli üçün təlim üsullarından yerli-yerində, ölçülü-biçili olaraq düşünərəkdən nümunəvi şəkildə istifadə edirlər. Öz peşələrinin vurğunu olan bu müəllimlər təlim prosesində şagirdərin düşündürülərəkdən, təfəkkür fəaliyyətinə cəlb edilərəkdən şüurluluq və fəallıq zəminində axtarıcı fəaliyyət göstərmələrinə xüsusi səy və təlaş göstərirlər. Bu qabaqcıl müəllimlər ayrı-ayrı şeir və hekayələrdəki müsbət və mənfi obrazları şagirdlərin özlərinə tapdırır, təlim prosesində ayrı-ayrı

obrazların xarekterik xüsusiyyətlərini səciyyələndirən əxlaqi-mənəvi dəyərlər üzərində şagirdlərin təhlil-tərkibin vəhdəti və habelə ağılın sönməz məşəli sayılan müqayisə əməliyyatları aparmaları zəminində real, düzgün nəticələrə gəlmələrinə nail olurlar. Şagirdlərinin təlim-tərbiyəsində yüksək amallar uğrunda çalışan bu qabaqcıl müəllimlər ikinci sinifdə "Yadigar", "Gənc bağbanlar", "Çörək bərəkətdir", "Oyan oğlum", "Heç belə dost olar", üçücü sinifdə "Qoca bağbanın vəsiyyəti", "Cırcırama və qarışqa", " Polad bilək", "Üç yoldaş" və s. mövzuları tədris edərkən görünən, müşahidə olunan, duyulan ifadəli qiraət nümunələri əsasında şagirdlərin nitq və qiraət vərdişlərini inkişaf etdirir və onları düşündürərək, təfəkkür fəaliyyətinə cəlb edərək, şüurluluq, fəallıq zəminində proqram tələbləri səviyyəsində bilik, bacarıq, vərdişlər aşılamaqla yanaşı, mövzuların imkanlarına müvafiq olaraq tərbiyəvi təsir göstərir və habelə onların psixoloji inkişaflarına müvəffəqiyyətlə nail olurlar.

Ordubad rayonunun Dəstə kənd orta məktəbinin sinif müəllimi Əvəz Nəsirov təlim-tərbiyəsi ilə məşğul olduğu şagirdlərinə ideal nümunədir. Uşaq psixologiyasını, onlara aid xarakterik xüsusiyyətləri dərindən bilən Əvəz müəllimin qabaqcıl iş təcrübəsini səciyyələndirən cəhətlər çoxdur. Onlardan biri özünün, həm də şagirdlərinin bir-birinin düzgün, ifadəli qiraət nümunəsindən bəhrələnməyə səy və təlaş göstərməsidir. O, özü qiraət zamanı durğu işarələrinin və habelə ifadəli qiraətin tələbləri baxımından ideal nümunələr təcəsüm etdirir. Təcəssüm etdirdiyi hər bir nümunə şagirdləri heyrətləndirməklə yanaşı onlarda düşünərək, fikirləşərək, mühakimə yürüdərək şüurlu şəkildə öyrənməyə maraq motivlərini və habelə idrak tələbatlarını qüvvətləndirmiş olur. Onun qiraət nümunələri şagirdlərinə estetik zövq baxımdan, emosionallıq baxımından yüksək təsir göstərməklə yanaşı, onlarda elmi biliklərə, mənəvi dəyərlərə və habelə kamil şəxsiyyət kimi formalaşmağa maraq və meyli gücləndirir.

Əvəz müəllimin pedaqoji prosesdə yüksək nümunəvi keyfiyyərlərindən biri də onun hər bir dərsdə şagirdərini özünütəhsilə, özünütərbiyəyə, özünüinkişafa istiqamətləndirməsidir. Bu amalla o, qiraət zamanı şagirdlərin bir-birini izləməsinə, müşahidə olunan irad və nöqsanların aşkarlanmasına səfərbər edir. O, pedaqoji təcrübəsindən, mütaliə etdiyi pedaqoji ədəbiyyatlardan yekdil nəticəyə gələrək bilir ki, təhsilin ən yüksəyi özünütəhsildir, tərbiyənin ən yüksəyi özünütərbiyə və inkişafın da ən yüksəyi özünüinkişafdır. Özünütəhsil, özünütərbiyə və özünüinkişaf prosesində hər iki fəaliyyət bir orqanizmdə cəmləşmiş olur. Bu cəhətdən də onun hər bir dərsi şagirdəri özünütəhsilə, özünütərbiyəyə və

habelə özünüinkişafa, özünütəkmilləşdirməyə səmtləndirir. Əvəz müəllim həmişə bir qayda olaraq təlim-tərbiyəsi ilə məşğul olduğu şagirdləri axtarıcı fəaliyyətə, müəllimlə yaxından əməkdaşlıq etməyə cəlb edir. Məsələn, o, birinci sinifdə "Nənə və nəvə" mövzusunu tədris edərkən şagirdlərin müstəqil, axtarıcı fəaliyyət göstərməsinə çalışır. Bunun üçün öz qiraət nümunəsindən sonra mövzunu düzgün, ifadəli qiraətin tələblərinə riayət etdirmək əsasında ayrı-ayrı şagirdlərə oxutdurur, sonra müsahibə əsasında mövzunun əsas ideyasını, əsas məzmununu şagirdlərin özlərinin sağlam düşüncələri əsasında aşkarlamasına nail olur. Ən nəhayət, mövzuda təsvir olunanlardan kimin haqlı, kimin haqsız olduğunu şagirdlərin özləri tərəfindən müəyyənləşdirilməsinə nail olur.

Onu da xatırlatmaq yerinə düşər ki, müəllim hər bir dərsdə düzgün, ifadəli qiraətin tələblərini gözləməklə yanaşı, intonasiyadan, mimiki hərəkət və jestlərdən yerli-yerində, ölçülü-biçili şəkildə istifadə etməklə qiraət materialında olan personajların daxili aləmini, onların hamıda rəğbət, heyrət doğuran müsbət nümunələrini və habelə ikrah hissi doğuran mənfi nümunələrini şagirdlərin nəzər- diqqətində canlandırır və habelə hadisələrin şagirdlərin özləri tərəfindən aşkarlanmasına nail olur. Bununla da dərsdə məzmun anlaşıqlılığı yaratmış olur. Bu söylənilən cəhətlərdən də dərsdə əsas ideya, əsas tələb rolunu oynayan şüurluluq və fəallıq prinsipi öz real ifadəsini tapmış olur.

Əvəz müəllim birinci sinifdə "Dilarə" şeirini tədris edərkən düzgün, ifadəli qiraətin tələblərini gözləməklə mimiki hərəkətlərə, jestlərə yer verdiyindən şagirdlər heyranlıqla onu dinləyirlər. Qiraət zamanı şeirdə verilmiş personajları hiss və həyəcanlarını çatdırır, canlı söz vasitəsilə təsvir olunan surətlərin portretlərini şagirdlərin gözü qarşısında canlandırır. Sonra şeirin məzmununu aşağıdakı qaydada izah edir: "Dilarə" şeirində təsvir olunur ki, Dilarənin özünün xəbəri olmadan saçı, üzü təbaşirə bulaşmışdı. Yoldaşları onu bu vəziyyətdə görüb gülüşürdülər. Dilarə yoldaşlarının gülüşlərindən təəccüblənirdi. Bu anda yoldaşlarından biri onda olan natəmizliyi görüb aradan qaldırmağa çalışırdı. Yoldaşının bu səmimiliyi, mehribanlığı şeirdəki aşağıdakı şəkildə poetik ifadəsini tapmışdır:

Biri isə söz deməyib,
Nə üzünə güldü onun.
Yaylığını tez çıxarıb
Üz-gözünü sildi onun.

Müəllim "Dilarə" şeirini ifadəli oxuduqdan sonra uşaqlara aşağıdakı tövsiyyələrini verdi: Dilarənin üz-gözünü heç bir söz demədən

təmizləyən yoldaşı çox səmimi və mehriban yoldaşdır. O, bu işdə çox düzgün hərəkət etmişdir. Siz də yoldaşlarınıza qarşı belə səmimi və mehriban olmalısınız. Yoldaşa qarşı rişxənd etmək lazım deyil, belə hallarda yoldaşa kömək və yardım etmək lazımdır. Bu tövsiyyə şagirdlərə əxlaqi baxımdan yüksək təsir göstərmiş oldu. Müəllimin verdiyi hər bir tövsiyə ağıla, zəkaya əsaslandığından şagirdlərin nəzər-diqqətində görünməyə, müşahidə olunmağa və habelə düyularaq dərk olunmağa səbəb oldu.

"Şagirdləri düşündürərək öyrətmək, nümunələrlə tərbiyələndirmək təcrübəsindən" fəslinə yekun olaraq bildirirəm ki, pedaqoji proseslə məşğul olanlar nümunəni sözdə yox, iş və əməllərində yaşatmalıdırlar. Onlar pedaqoji prosesin məzmunundan irəli gələn qanunauyğunluqlar, qanunlar və onlardan törəmə olan əsas ideya, əsas tələb rolunu oynayan pedaqoji prinsiplərdən təlimin bütün mərhələlərində düşünülmüş, nümunəvi şəkildə istifadə etsələr təlim vəzifələri öz müvəffəqiyyətli həllini tapmış olar.

**Tədqiqatla bağlı aşağıdakı nəticələrə gəlmək mümkündür:**

- Beyin fəaliyyəti olan düşündürərək öyrətmək, düşünərək öyrənmək və habelə çoxçalarlı pedaqoji fəaliyyətdə müəllimin peşəkarlıq və ideya-siyasi,əxlaqi-mənəvi baxımdan görünən, müşahidə olunan, duyulan ideal səciyyəli müsbət nümunələrə riayət etmək mədəniyyətinin yüksək olması təlim-tərbiyə işinin səmərə və keyfiyyətinin yüksəlməsinə səbəb olur. Sağlam düşüncə dünyada ən kamil aparat kimi dəyərləndirilən insanın beyin fəaliyyəti sayəsində yaranır və pedaqoji fəaliyyətdə heyrətamiz müsbət nümunələr, o cümlədən düşüncə bir-birinin təkamülünə, inkişafına yaxından köməklik və yardım göstərir, bu keyfiyyətlərin müəllim şəxsiyyətində cəmləşməsi təlim-tərbiyə işinin yüksəlməsi ilə nəticələnir.
- Bilik düşüncənin əsası olduğundan hər bir müəllimin fasilələrə yol vermədən öz peşəsi ilə bağlı bilik, bacarıq, vərdişlərə dərindən yiyələnməsi, intellektul səviyyəsini aramsız olaraq yüksəltməsi, hər bir dərsinə düşünərəkdən əsaslı şəkildə hazırlaşması və habelə şagirdlərinə ideal nümunə olması, pedaqoji qanunauyğunluqlara, qanunlara və pedaqoji prinsiplərə riayət etməsi apardığı təlim-tərbiyə işinin səmərə və keyfiyyətini qat-qat yüksəldir. Pedaqoji fəaliyyətdə sağlam düşüncədən və təcrübədən müvəffəqiyyətlə çıxmış müsbət ideal nümunələrdən nizamlı şəkildə istifadə etmədən reallıqları düzgün aşkarlamaq, unutqanlığın qarşısını almaq və habelə şüurlu mənimsəməyə nail olmaq qeyri-mümkündür.

- Düşünmək, fikirləşmək insani fəaliyyətdir, o, insanı başqa canlılardan fərqləndirir və həmçinin hər bir adamı nümunəvi fəaliyyət göstərməyə təhrik edir, hərəkətlərində, davranışında məhsuliyyətli olmağa sövq etdirir və habelə səfərbər edir. Düşünmə, fikirləşmə, sağlam düşüncəyə söykənərək nümunəvi fəaliyyət göstərmək hər bir adamı müvəffəqiyyətlərə, qələbələrə aparır, ona güc verir, qüvvət verir, dəyanət verir. Dahi şairimiz Nizami dediyi kimi: "On adam öldürsə bir qılınc əgər, düşüncə ordunu salar dərbədər." Düşüncə və nümunəvi fəaliyyət insanı müvəffəqiyyətlərə, ad-san qazanmağa, gərəkli insan, vətəndaş olmağa istiqamətləndirir, onu avaraçılıqdan, fəaliyyətsizlikdən kənarlaşdırır. Həyatda qazanılmış bütün xarüqələr, heyrətamiz nümunələr insan zəkasının, düşüncəsinin məhsuludur.

- Təlim ikitərəfli fəaliyyətdir. Düşündürərək öyrətmək, düşünərək öyrənmək həm müəllimin, həm də şagirdlərin psixi proseslərinin (diqqət, qavrayış, hafizə, təfəkkür, təxəyyül və s.) inkişafına səbəb olur. Psixi proseslər insanda bilik kərpiclərinin bir-birinin üstünə qoyulmasında mühüm rol oynayır. Psixi prosesləri inkişaf etdirmədən, onları fəaliyyətə səfərbər etmədən bilik, bacarıq, vərdişlərə şüurlu şəkildə yiyələnmək mümkün deyildir. Məktəbəqədər yaş və ibtidai təlim dövründən başlayaraq şagirdləri düşündürmək, axtarıcı, yaradıcı fəaliyyətə səfərbər etmək, onlara ideal nümunələr əsasında tərbiyəvi təsirlər göstərmək onlarda təlim materyalını şüurlu öyrənmək meylini, səriştəliliyini qüvətləndirir və qat-qat yüksəldir. Qazandıqları bilik, bacarıq və vərdişlərin hafizələrdən silinməməsinə real zəmin yaratmış olur və habelə təfəkkür fəaliyyətini yüksəltmiş olur. Düşündürərək öyrətmək, şəxsi nümunələrlə təsir göstərmək, düşünərək öyrənmək, düşünərək tərbiyələnmək həm müəllimi və həm də şagirdləri kamilləşdirir. Bu prosesdə şüululuq və fəallıq prinsipi öz real həllini tapmış olur.

- Düşündürərək öyrətmək, düşünərək öyrənməyə səfərbər olmaq, şəxsi nümunələr əsasında tərbiyəvi təsirlər göstərmək təlimin təhsilləndirici (bilik, bacarıq və vərdişlərə yiyələnmə), tərbiyələndirici (mənən zənginləşmə), inkişafetdirici (psixi proseslərin inkişafı) vəzifələrinin müvəffəqiyyətli həllinə səbəb olur. Bütün bunlar şagirdlərdə təlimə şüurlu münasibət formalaşdırır, mexaniki. əzbərçilik yolu ilə öyrənməyin qarşısını almış olur.

Düşünmək, fikirləşmək beyin fəaliyyətidir, şəxsi nümunələrlə təsir göstərmək isə əqli nəticələrə gəlmək, obyektiv reallıqları aşkarlamaq, onlara düzgün, real qiymət vermək fəaliyyətidir. Uşaq öz təbiəti etibarı ilə düşünərək öyrənməyə, axtarıcı. yaradıcı fəaliyyət göstərməyə meyillidir.

Təlim prosesində onu düşünmədən, fikirləşmədən, hissetmədən kənarlaşdırıb, sadəcə dinləyiciyə çevirmək, onu inkişafdan saxlamaq deməkdir.

- Elmi tədqiqatlar təsdiqləyir ki, ibtidai təlim dövründə şagirdlərdə oyanma, ləngimə və habelə birinci və ikinci siqnal sistemləri arasında tarazlıq əmələ gəlir. Şagirdlərin psixi prosesləri ən yüksək təkamülünə başlayır. Şagirdlərin məntiqi təfəkkürlərini inkişaf etdirmək üçün geniş imkan və şərait yaranır. Bu cəhətdən də tədricilik zəminində onlarda düşünərək, zəkaya əsaslanaraq öyrənmək qabiliyyətlərini inkişaf etdirmək vacib, gərəkli və hətta zəruridir. Onu da xatırlatmaq yerinə düşər ki, ibtidai təlim dövründə hissi qavrayışla məntiqi qavrayış arasında tarazlıq yaransa da, hələ onlarda mücərrəd təfəkkür lazımi səviyyədə inkişaf etmədiyindən onların təlimini əşyalar, canlı obrazlar üzərində qurub, onları bilik, bacarıq və vərdişlərə yiyələndirmək sərfəli, effektli yollar sırasındadır. V.A.Suxomlinskinin bildirdiyi kimi. uşağın əqli qüvvələrini təbiətin qoynunda inkişaf etdirərək möhkəmləndirmək lazımdır. Bu uşaq orqanizminin təbii qanunauyğunluqlarının tələbidir. Bu cəhətdən də Suxomlinskinin xatırlatdığı kimi, təbiətə edilən hər bir səyahət təfəkkür dərsidir, düşündürmək, əqli mühakimələr yürütdürmək, əqli inkişaf etdirmək dərsidir.

Fikirləşmək, düşünmək, əqli mühakimələr yürütmək beyin fəaliyyətidir. Uşaqları düşündürərək öyrətmədə müşahidə üsulunun dəyəri xeyli böyükdür. Müşahidə şagirdlərdə düşünmək, fikirləşmək, əqli mühakimələr yürütmək, real nəticələrə gəlmək və danışmaq, öyrəndiklərini sözlə maddiləşdirmək ehtiyacı doğurur. Fikirləşməyin, düşünməyin insanın bir şəxsiyyət kimi formalaşmasında da faydası, dəyəri, əhəmiyyəti xeyli böyükdür. Fikirləşmək. düşünmək, mühakimə yürütmək insanı təmkinli edir, intellektləşdirir. Onu yersiz danışmaqdan, faydasız fəaliyyətdən kənarlaşdırır.

- Tədqiqatlar təsdiqləyir ki, şagirdlər onların qarşısında canlandırılan qavrayış materialı əsasında düşünür, fikirləşir, nitqə yiyələndikcə onlarda əvvəlcə obrazlı təfəkkür, daha sonra mücərrəd təfəkkür inkişaf etməyə başlayır. Bu cəhətdən də müəllimlər şagirdləri qavrayış materyalı əsasında düşündürməyi, onların nitqlərini inkişaf etdirmək zəminində əvvəlcə obrazlı, onun ardınca mücərrəd təfəkkürlərini inkişaf etdirməyi fəaliyyətlərinin ana xətti hesab etməlidir.

Düşünərək öyrənmədə insanı inkişafa, tərəqqiyə, müvəffəqiyyətlərə səmtlədirən tələbatların da rolu, dəyəri xeyli böyükdür. Tələbatsız inkişaf da mümkün deyildir. Bu cəhətlərdən də müəllim elmi biliklərə

yiyələnməyin faydası, dəyəri ilə bağlı real faktlar əsasında şagirdləri heyrətləndirməli, öyrənməyə mənəvi tələbatlar yaratmalıdır. Real faktlar əsasında elmi biliklər barədə heyrət hissinin yaradılması şagirdlərdə düşünərək. mühakimələr yürüdərək öyrənməyə mənəvi tələbatlar yaratdıqda, şagirdlər təlim prosesində daha çox fəallıq, təşəbbüskarlıq göstərirlər. Şəxsiyyətin fəallığının mənbəyini onun tələbatı təşkil edir. Məhz tələbat insanı müəyyən surətdə və müəyən istiqamətdə iş görməyə təhrik edir. Psixoloji ədəbiyyatlar təsdiqləyir ki, tələbat şəxsiyyətin haləti olub, onun konkret varlıq şəraitindən asılılığını ifadə edir. Tələbat şəxsiyyətin fəallığının mənbəyi kimi meydana çıxır. Bu baxımdan da ibtidai təlim dövründən şagirdlərdə müstəqil düşünməyə, əqli nəticələr çıxarmağa arzu, istək, maraq, aludəçilik yaratmaq səmərəli, faydalı, effektli yollar sırasındadır. İnkaredilməz, danılmaz bir həqiqətdir ki, insan fikri o zaman meydana gəlir ki. onun hər hansı bir şeyi dərk etməyə ehtiyacı, tələbatı olur.

- Yaşa, fərdi-psixoloji xüsusiyyətlərə uyğun şəkildə mövzu ilə başlı şagirdlər qarşısında problemli vəziyyətlərin yaradılması şagirdlərdə düşünərək-daşınaraq öyrənmək səriştəliliyini qüvvətləndirir, onları axtarıcı, yaradıcı fəaliyyətə təhrik edir. Təlim prosesinin şagirdlərin yaş və bilik səviyyələrinə uyğun şəkildə elmi mübahisələrə, situasiyalara cəlb edilməsi onlarda fikirləşmək, düşünmək həvəsini, meylini, əzmini qat-qat artırır.

- Biliyi hazır şəkildə şagirdlərə vermək düzgün yol deyil, onu düşündürmək, axtarıcılığa səfərbər etmək zəminində aşılamaq lazımdır. Qədim filosoflar haqlı olaraq deyirdilər ki, şagird boşqab deyil ki, onu doldurasan. Şagird elə bir məşəldir ki, onu gərək alışdırasan. Vəzifə məktəblilərə yaradıcı düşünməyi öyrətmək, onları həyata, əməli işə hazırlamaqdır. Bu cəhətlərdən də şagirdləri düşündürərək, əqli mühakimələrə səfərbər edərək öyrətməli və habelə onlara öyrənməyin yollarını öyrətmək əsasında bilik. bacarıq və vərdişlər aşılanmasına nail olmalıyıq. Bu fəaliyyətdə müəllim səriştəliliyi, müəllim nümunəsi həlledici rol oynayır.

Əsas məqsəd şagirdlərin öz axtarıcı fəaliyyətləri zəminində bilik. bacarıq və vərdişlərə şüurlu şəkildə yiyələndirməkdir. Onlara hissi idrakdan məntiqi idraka keçməyi mənimsətməkdir.

- Düşünərək öyrənmək insanı gərəkli biliklərə, heyrəamiz zəkaya və gözəl əxlaqa qovuşdurur. Düşünərək öyrənmək insanı həyat hadisələrindən. həyat gerçəkliklərindən doğru, düzgün baş çıxarmağa, rastlaşdığı maneələri müvəffəqiyyətlə aradan qaldırmağa real zəmin yaratmış olur. Düşüncə insanı hər bir işdə nizamlı, ölçülü-biçili fəaliyyətə

yönəldir. Müəəlim dərslikdə olan proqram materyalını hazır şəkildə çatdırmaqla kifayətlənməməlidir. Materyalı düşünərək, mühakimələr, müqayisələr apararaq dərk etməyin, mənimsəməyin yollarını öyrətməlidir. F.A.Disterveq çox haqlı olaraq yazırdı: "Pis müəllim həqiqəti çatdırır, yaxşı müəllim onu tapmağı öyrədir".

Şagirdləri düşündürmədən, fikirləşməyə səfərbər etmədən, onları əqli mühakimələr yürütməyə cəlb etmədən bilik, bacarıq və vərdişlərin aşılanması onlarda axtarıb tapmaq, təşəbbüskarlıq meylini azaldır, onlarda fikir tənbəlliyi yaradır. Bu da onları ümumi inkişafdan və habelə psixi inkişafdan geri qoymuş olur.

Təlimin bütün təşkilat formalarında müəllim öz fəaliyyəti ilə şagirdlərin fəaliyyətini nizamlı tənzimləmək bacarığına sahib olmalıdır. İzahını, şərhini elə qurmalıdır ki, şagirdlər düşünmək, fikirləşmək imkanı əldə edərək axtarıcı fəaliyyətə cəlb olunmuş olsunlar.

Düşüncə insanı bütün çalarlarda əqli-mənəvi dəyərlərlə zənginləşdirir, kamilləşdirir, intellektləşdirir və habelə müdrükləşdirir. Həqiqət və bilik düşüncənin məhsuludur, real nəticəsidir. Düşüncə olmadan həqiqət və biliklərə yiyələnmədən sağlam düşüncə sahibi olmaq olmaz. Həzrəti Əli deyirdi ki, ən qiymətli mal – ağıl, ən sadiq dost – gözəl xasiyyət. ən qiymətli miras - ədəb, ən xeyirli yol – həqiqət yolu, ən böyük şərəf – elmdir. Düşüncəsiz ağıla, sadiq dosta, ədəbə, həqiqət yoluna, ən böyük şərəf olan elmə yiyələnmək, onun sahibi olmaq qeyri-mümkündür.

Şagirdləri düşündürməkdə təlimdə əsas ideya, əsas tələb rolunu oynayan yaş və gücə müvafiqlik prinsipi nəzərə alınmalıdır. Düşündürərək öyrətmədə və habelə düşünərək öyrənmədə yaş və gücə müvafiqliyin didaktik dəyəri xeyli böyükdür. Şagirdlərin güclərinə müvafiq olmayan (yuxarı və ya aşağı) problem məsələlər üzərində düşündürülməsinə göstərilən səy və təlaşlar arzu olunan, istənilən nəticəni vermir. Şagirdləri gücləri çatmayan qaydada, gücləri çatmayan məsələlər ətrafında düşündürmək onları yorur, ağırlıq ucbatından lazımi təfəkkür fəaliyyəti yürüdə bilmirlər. Qüvvələrindən aşağı səviyyədə düşünmək isə onlarda fikri fəallığı azaldır, təlimə yüngül münasibət bəsləmələrinə səbəb olur. Təlimin bütün təşkilat formalarında düşündürərək öyrətmədə elə bir ölçü meyarı yoxdur. Bunu müəllim hər bir şagirdi hərtərəfli öyrənməsi əsasında pedaqoji ustalıqdan, pedaqoji təcrübədən istifadə edərək tənzimləməyi. nizamlamağı bacarmalıdır.

Tədqiqatın əsas məzmunu və başlıca ideyaları aşağıdakı **əsərlərdə** öz əksini tapmışdır:

1. Дильшад Гусейнова // Журнал «Начальная школа», Москва:

1976, № 3, стр. 63
2. С любовю к детям // Журнал «Дошкольное воспитание», Москва: 1984, № 2/84, стр. 95-97
3. Firdovsinin “Şahnamə” əsərində əqli mənəvi dəyərlər // İran: “Körpü” jurnalı, 2005, № 49, səh. 20-21
4. Təlim vəzifələrinin müvəffəqiyyətli həllində düşüncəli və nümunəvi fəaliyyətin rolu // Türkiyə: Baski (Pres) Tipoqrafiya. “Kultur evreni” jurnalı, 31 mart 2011-ci il, səh.164-170
5. Təlim motivləri düşüncənin əsasıdır // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. Naxçıvan: Qeyrət, 2010, səh.170-173
6.Təlim-tərbiyənin səmərəliliyinin artırılmasında şagirdləri düşündürərək öyrətməyin əhəmiyyəti // Bakı: Mütərcim, 1999, 46 səh.
7. Təlim-tərbiyənin səmərəliliyinin artırılmasında şagirdləri öyrənməyin əhəmiyyəti // Bakı: ADPU-nin mətbəəsi, 1998, 31 səh.
8.Tərbiyədə nümunənin rolu // “İbtidai məktəb və məktəbəqədər tərbiyə” jurnalı, Bakı: 1988, № 1, səh. 23 - 26
9.Tərbiyədə nümunənin pedaqoji əsaslarına dair // Pedaqoji Universitet Xəbərləri (humanitar elmlər seriyası), Bakı: 1999, № 2, səh. 107 - 113
10.Tərbiyədə nümunənin rolu // “Azərbaycan məktəbi” jurnalı, Bakı: 2000, № 6, səh. 28 - 31
11. Düzlük və doğruçuluq tərbiyəsində valideynin şəxsi nümunəsi // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri (Ali məktəblər arası tematik məcmuə), Bakı: 2001, № 2, səh. 6 - 9
12. Uşaqların estetik tərbiyəsində valideyn nümunəsinin rolu // “Təhsil, mədəniyyət, incəsənət” jurnalı, Bakı: 2001, № 2, səh. 30 - 32
13. Ekoloji tərbiyədə valideyn nümunəsi // “Azərbaycan məktəbi” jurnalı, Bakı: 2002, № 5, səh. 72 - 75
14.Tərbiyədə nümunənin psixoloji əsasları // Humanitar elmlərin aktual problemləri (Ali məktəblərarası elmi məqalələr məcmuəsi), Bakı: 2003, № 2, səh. 114 - 117
15. Qadın xisləti nümunələrinə poetik münasibət // Pedaqoji Universitet Xəbərləri, Bakı: 2003, № 4, səh. 202 - 207
16. Müəllim nümunəsinin təsir gücü // “İbtidai məktəb və məktəbəqədər tərbiyə” jurnalı, Bakı: 2004. № 2, səh. 86 - 89
17.Təlim-tərbiyədə müəllim nümunəsinin rolu // “Pedaqoji tədqiqatlar” jurnalı (elmi məqalələr məcmuəsi), Bakı: 2004, № 3 (22), səh. 90-94
18. Şəxsiyyət şəxsiyyətdən təşəkkül taparaq formalaşır // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri (Ali məktəblərarası məqalələr məcmuəsi), Bakı: 2004, № 2, səh. 221 - 227

19 Məktəb rəhbərinin şəxsi nümunəsinin təlim-tərbiyəyə təsiri. // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, Naxçıvan: 2006, № 4 (8), səh. 75 - 77

20. Məktəbdə təlim-tərbiyə işinin yüksəldilməsində sinif rəhbərinin şəxsi nümunəsinin rolu // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, Naxçıvan: 2007, № 2 (10), səh. 9 - 13

21. Ailədə valideynlərin şəxsi nümunəsinin tərbiyəvi təsir gücü // Pedaqoji Universitetin Xəbərləri (pedaqoji, psixoloji elmlər seriyası), Bakı: 2000, № 1-2, səh 66 – 74

22. Düşündürərək öyrətmək – şüurlu öyrətməkdir // Pedaqoji Universitetin Xəbərləri (pedaqoji, psixoloji elmlər seriyası), Bakı: 1998, № 4, səh. 31 - 37

23. Ağıl tərbiyəsi ilə bağlı düşüncələr // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, Naxçıvan: 2007, № 1 (9), səh. 13 - 17

24. Şagirdlərə öyrənməyin yollarını öyrədək // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, Naxçıvan: 2008, № 1 (13), səh. 9 - 14

25. Düşüncənin təlim-tərbiyə dəyəri // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, Naxçıvan: 2008, № 2 (14), səh. 4 -8

26. Düşündürərək öyrətmək öyrənməyin əsası kimi // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, Naxçıvan: 2008, № 4 (24), səh. 279 - 282

27. Bilik - düşüncənin əsasıdır // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, Naxçıvan: 2009, № 2 (27), səh. 269 - 272

28. Təlim – tərbiyədə müəllim nümunəsinin rolu // Pedaqoji tətqiqatlar (Elmi məqalələr məcmuəsi), ADPU, Bakı: 2004, №3(22), səh. 90-94

29. Əmək ən böyük tərbiyəçidir // "İbtidai məktəb və məktəbəqədər tərbiyə" jurnalı, Bakı: 1987, № 4, səh. 68 – 70

30. Təlimin səmərəli təşkilində fərdi yanaşma // "Azərbaycan məktəbi" jurnalı, Bakı: 1998, №2, səh 83 – 88

31. Şagirdlərin psixi proseslərinin öyrənilməsinin təlim – tərbiyə prosesi ilə bağlılığı haqqında // Pedaqoji Universitetin Xəbərləri (Pedaqoji, psixoloji elmlər seriyası), Bakı: 1998, №1, səh 235 – 241

32. Özünütərbiyə həyatın tələbidir // "Azərbaycan məktəbi" jurnalı, Bakı: 1997, № 4, səh 45 – 48

33. Özünütərbiyə və onun inkişafında daxili qüvvələrin tələbatının rolu // Pedaqoji Universitetin Xəbərləri (Humanitar, pedaqoji, psixoloji elmlər seriyası), Bakı: 2005, № 5, səh 103 – 111

34. Özünütəhsil optimal təhsillənmə, tərbiyələnmə və inkişafa nail olma yoludur. // "Təhsil, mədəniyyət, incəsənət" jurnalı, Bakı: 2000, № 3, səh. 58 – 61

35. Tərbiyə işinin səmərə və keyfiyyətini yüksəldən amillərə dair // Pedaqoji Universitetin Xəbərləri, Bakı: 2004, №2, səh. 140 – 144
36. Şəxsiyyət bütövlüyü // "Təhsil, mədəniyyət, incəsənət" jurnalı, Bakı: 2002, № 3, səh. 44 – 46
37. Pedaqoji prosesin səmərəli qurulmasına təsir göstərən amillər // "Təhsil, mədəniyyət, incəsənət" jurnalı, Bakı: 2000, №4, səh. 39 – 41
38. İntellekt haqqında düşüncələr//Azərbaycan məktəbi jurnalı, Bakı: 2001, № 3, səh. 45 – 48
39. Tərbiyəvi fəaliyyətin sistemi //Pedaqoji Universitet Xəbərləri jurnalı, Bakı: 2003, № 3, səh 422 – 424
40. Ailə tərbiyəsinin bəzi məsələlərinə dair//"Təhsil, mədəniyyət, incəsənət" jurnalı, Bakı: 2004 nömrə 4, səh.21-22.
41. Şəxsiyyət bütövlüyünün təmin olunması, formalaşması və inkişafında əməyin rolu// "Təhsil, mədəniyyət, incəsənət" jurnalı, Bakı: 2001 nömrə 3, səh.62-64.
42. Müəllim nüfuzu // Naxçıvan Dövlət Universitetinin "Elmi əsərlərİ" jurnalı, Naxçıvan: Qeyrət nəşriyyatı, 2000, nömrə 6, səh.28-30.
43. Müəllimin peşə mədəniyyəti //Pedaqoji tədqiqatlar jurnalı, Bakı: 2000, nömrə 1, səh.163-168
44. O, duyaraq oxumağı, öyrənməyi öyrədir.// "İbtidai məktəb və məktəbəqədər tərbiyə" jurnalı, Bakı: 1988, № 4, səh.73-76.
45. Siyasi cəhətdən yetkin, kamil şəxsiyyətlər formalaşdırmaq həyatın tələbidir.// ADPU. "Pedaqoji tədqiqatlar" jurnalı, Bakı: 2001, № 1 (10), səh.49-53.
46. "Gülüstan"da xeyirxahlıq nümunələri // "Pedaqoji Universitet Xəbərləri" jurnalı, Bakı: 2001, № 1, səh.37-44.
47. Pedaqoji prosesin humanistləşdirilməsi // "Təhsil, mədəniyyət, incəsənət" jurnalı, Bakı: 2001, № 4, səh. 63-66.
48. Pedaqoji biliklərin təbliğinin təlim-tərbiyə əhəmiyyəti // "Təhsil, mədəniyyət, incəsənət" jurnalı, Bakı: 2004, № 2, səh.89-91.
49. Nizami yaradıcılığında övlad tərbiyəsi məsələləri // "Azərbaycan məktəbi" jurnalı, Bakı: 2011, № 4, səh. 90-93.
50. Tərbiyəedən nümunəsi görünür, müşahidə olunur, duyulur // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, Naxçıvan: 2011, № 1, səh. 176-180.
51. Böyük şəxsiyyət nümunəsi / Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci il dönümünə həsr olunmuş V Beynəlxalq elmi konfransın materialları. Bakı: 2014, s. 34-36

52. Düşüncə və onun psixoloji fizioloji əsasları / Tədris prosesinin təkmilləşdirirlməsi və müasir təhsil konsepsiyaları. Beynəlxalq Elmi Konfransın materialları. Naxçıvan şəhər, 16-17 noyabr 2014, s. 177-178

53. Роль мышления в прцесе познания / “Инноация, качество образования и развитие” матриалы. III Маждунарной научной конференчии. Посвящается 75 летнему юбилею Бакинского института повышения квалификачии И переродготовки педагогических кадров. Bakı . 2014, s. 39-42

54. İnternational Journal of Multidisciplinary Research and Development. Meditation and its psychophysiological basis // İsuse 6, 243-244, june 2015

55. Heydər Əliyev və doğma ana dilinə məhəbbət tərbiyəsi / Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş VI Beynəlxalq elmi konfransın materialları, 05-07 may 2015-ci il, I hissə, Bakı: 2015, s. 52-53

56. Düşnürəm, deməli varam / Azərbaycanda təhsil quruculuğunun priotetləri: Müasir yanaşmalar. Beynəlxalq Elmi Konfransın Materialları. Naxçıvan şəhəri, 5-6 iyun 2015, s. 184-185

57. Düşüncəmizi kamilləşdirək // Məktəbəqədər və ibtidai təhsil, 2015, №2, s. 11-12

58. Düşüncə ən yüksək nemətdir // Azərbaycan məktəbi, 2015, № 3, s. 84-86

59. Bilgi düşüncənin təməlidir // Sesam say 1. Nisan 2014

60. Fiziki sağlamlıq şəxsiyyət bütövlüyünün əsasıdır // Naxçıvan Dövlət Univerisiteti Elmi əsərlər. Naxçıvan: 2014, 1(57), s. 192-195

61. Doğma ana dilinə məhəbbət tərbiyəsi // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. Naxçıvan: 2015, №1 (66), s.215-217

**Раджаб Абдулали оглу Агаев**

## Научно-теоретические основы осознанного обучения учащихся и примера в повышении эффективности учебы и воспитания

Диссертация состоит из 4-х глав, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность темы, определяются объект, цель, предположение, задачи исследования, применяемые исследовательские методы, методологические основы,

комментируются выдвинутые критерии, описывается научная новизна работы, ее теоретичико-практиченское значение.

I глава, названная **«Научно-теоретические основы осознанного обучения учащихся и примера в повышении эффективности учебы и воспитания»**, состоит из 9-ти подразделов. В первых двух подразделах соответственно говорится о психолого-физиологических основах осознанного обучения, а также сознания. В 3-м подразделе научно откомментированы значение осознанного обучения, а также вопросы об изученных и освоенных знаниях, являющихся основой сознания. 4-ый подраздел I главы посвящен сознанию, связанному с умственным воспитанием, а 5-ый подраздел – обучению учащихся путем осознанного изучения. 6-й подраздел называется **«Учебно-воспитательная ценность сознания»**, здесь оценивается роль здарового смысла в жизни человека. В 7-ом подразделе рассматриваются вопросы источника сознания при мотивации обучения, в 8-ом подразделе разъясняются приемы и методы направления сознания к цели. В 9-ом подразделе I главы обосновывается мысль, что осознанное обучение удерживает учащихся от механического обучения, создает условия для осознанного усвоения преподаваемой темы, предотвращает забывчивость и отставание учащихся в процессе учебы.

II глава диссертации называется **«Научно-теоретические основы примера в учебно-воспитательной работе и роль личных примеров членов педагогических коллективов»** и охватывает 5 подразделов. 1-ый подраздел посвящен сути, содержанию и научно-теоретическим основам примера, во 2-ом подразделе оценивются педагогические и психологические основы примера в воспитании, в 3-ем подразделе, названном **«Личность формируется, сформулируясь от личности»**, проводятся соответствующие педагогические анализы. В 4-ом подразделе II главы выясняются вопросы о роли примера в воспитании и сила влияния личного и профессионального примера учителя учебно-воспитательной работе. Доказывается, что примеры благоволения, порождающие у всех хорошее настроение и чувство удивления, способствуют ликвидации у детей недоразумение, направляет их к верному осмыслению объективных реалий. 5-ый подраздел II главы посвящен проблеме влияния личных примеров директора школы и классных руководителей учебно-воспитательному процессу.

III глава диссертации называется **«Научно-теоретические основы личных примеров взрослых в семье и их роль в**

**воспитании»**. Данная глава состоит из 5-ти подразделов. В 1-ом подразделе говорится о влиятельной силе воспитания личных примеров родителей в семье. Во 2-ом подразделе рассматривается проблема личных примеров родителей в воспитании верности и правдивости. В 3-ем подразделе III главы выражается отношение к личным примерам женщин в семье. 4-ый подраздел посвящен роли примера родителей в эстетическом воспитании детей. В 5-ом подразделе III главы оценивается значение примера родителей в экологическом воспитании подрастающего поколения.

IV глава диссертации, состоящая из 3-х подразделов, называется **«Из опыта осознанного обучения учащихся, воспитание примерами»**. 1-ый подраздел IV главы называется **«Из опыта осознанного обучения»**, где отмечается, что в общеобразовательных школах Нахчыванской Автономной Республики, неотъемлемой составной части Азербайджана, имеются очень много учителей, особо старающихся с использованием созданных здесь возможностей, с применением умелых, инновационных методов осознанно обучать и воспитать учащихся. 2-ой подраздел IV главы содержит материал о примерах воспитателя. 3-й подраздел данной главы называется **«Из опыта обучения и воспитания учащихся на основе примеров»**, здесь оценивается педагогическая деятельность учителей и воспитателей Автономной Республики, добившихся гармонию в учебно-воспитательной работе и психическому развитию учащихся, умеющих своими личными примерами повлиять на их учебно-воспитательный процесс.

В заключительной части обобщаются основные выводы исследования.

**Rajab Abdulali oghlu Aghayev**

## Scientific-theoretical bases of a sample and teaching students by causing them to think in raising efficiency of teaching and education

## SUMMARY

Dissertation submitted to defense consists of an introduction, four chapters, including twenty nine semi-chapters, conclusion and a list of used

literature. The Introduction substantiates the topicality of the theme, informs about the object, the aims, suppositions and objectives of the research; focuses on methods and methodological bases of research and the thesis put forward; gives full imagination on the scientific novelty, theoretical and practical significance of the research.

The first chapter entitled "**Scientific-theoretical bases of teaching students by causing them to think in raising efficiency of teaching and education"** consists of nine semi-chapters. The first two semi-chapters investigate the psychological-physiological bases of thought and teaching students by causing them to think. The third semi-chapter gives scientific explanation of the importance of teaching students by causing them to think and states that the knowledge gained is the basis of thought. The fourth semi-chapter studies the thoughts related to mind education; the fifth semi-chapter studies teaching students the ways of teaching students by causing them to think. The sixth semi-chapter entitled "Teaching and educational value of thought" values the role of healthy thinking in the life of humans. The seventh semi-chapter considers teaching motives to be the source of thoughts. The eighth semi-chapter explains the ways and means of directing the thought to the aim. The ninth semi-chapter focuses on the fact that teaching students by causing them to think prevents them to study mechanically; it creates condition for the conscious acquisition of the taught topic. It also prevents students' forgetfulness and retarding.

The second chapter entitled **"Scientific-theoretical bases of a sample in teaching and education and the role of personal samples of pedagogical staff"** consists of five semi-chapters. The first semi-chapter deals with the essence, context and scientific-theoretical bases of a sample. The second semi-chapter appreciates the pedagogical and psychological bases of a sample in education. The third semi-chapter is entitled "A personality is formed by the evolution of a personality" and appropriate analyses are made. The fourth semi-chapter explains the role of a sample in education and power of effect of a personal and professional sample of an instructor in teaching and education. It is shown that the positive amazing examples that evoke affection, optimism and astonishment in all people, eliminates misunderstandings in children and directs them to comprehend realities correctly. The fifth semi-chapter reflects the effect of personal samples of a school director and class teachers on teaching and education.

The third chapter of the dissertation entitled "**Scientific-theoretical bases of a personal sample of adults in a family and its role in education**" consists of five semi-chapters. The first semi-chapter deals with

the educational effect power of a personal sample of parents in a family. The second semi-chapter explains the personal sample of parents in fostering honesty. The third semi-chapter expresses the attitude to the women's being personal sample in education. The fourth semi-chapter focuses on the role of a parent sample in children's aesthetic education. The fifth semi-chapter explains the importance of a parent sample in ecological education. The fourth chapter of the dissertation entitled "**From the practice of teaching pupils by causing them to think and to educate them by samples**" consists of three semi-chapters. The first semi-chapter is called **"From the practice of teaching pupils by causing them to think"** and it states that there are many teachers who are able to teach pupils by causing them to think, comprehend and to educate by using great opportunities in the comprehensive schools of the Nakhchivan Autonomous Republic which is an integral part of Azerbaijan. The second semi-chapter deals with the sample educator. The third semi-chapter is called "**From the practice of teaching and educating pupils by samples**". It appreciates the pedagogical activity of the instructors and educators in our Autonomous Republic who are able to achieve the harmony of teaching and education and psychological development of pupils and who can influence on the teaching and education process by their personal samples.

**The "Conclusion"** summarizes the thesis findings of the researcher on the topic.

Çapa imzalanmışdır: 21.01.2016
Formatı: 60×90, 16/1, həcmi: 1,4 ç/v
Sifariş: 36   Sayı 100

NDU-nun “Qeyrət” nəşriyyatının mətbəəsində çap olunmuşdur.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
НАХИЧЕВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
УНИВЕРСИТЕТ**

На правах рукописи

**РАДЖАБ АБДУЛАЛИ ОГЛУ АГАЕВ**

# НАУЧНО-ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ ОСОЗНАННОГО ОБУЧЕНИЯ УЧАЩИХСЯ И ПРИМЕРА В ПОВЫШЕНИИ ЭФФЕКТИВНОСТИ УЧЕБЫ И ВОСПИТАНИЯ

5804.01-Общая педагогика, история педагогики и образования

**АВТОРЕФЕРАТ**
диссертации на соискание ученой степени
доктора наук по педагогики

**НАХЧЫВАН – 2016**